{$x$$CH_3OH$+(1-$x$)[BMİM][$PF_6$]} binar qarışığının T=(263.15÷413.15)K temperatur intervalında, atmosfer və doymuş buxar təzyiqlərində dinamik özlülüyünün $\eta_{təc.}(p_0,T)$ və (4) tənliyi ilə hesablanmış dinamik özlülüyünün $\eta_{hes.}(p_0,T)$ fərqinin metanolun müxtəlif mol hissələrində temperaturdan T/K asılılığı: ◆- 0.0000; ■- 0.1537; ●- 0.3289; ▲- 0.5675; ◇- 0.7599; △- 0.8601; □- 0.9006; ○- 0.9442; ◇- 0.9728; △- 0.9899; □- 0.9947; ○- 1.0000.

{$x$$CH_3OH$+(1-$x$)[BMİM][$PF_6$]} binar qarışığının izafi özlülüyünün η^E hesablanması zamanı qarışığı təşkil edən komponentlərin özlülüklərinin təcrübi nəticələri olduqca dəqiq götürülməlidir. Bu məqsədlə [BMİM][PF_6] ionlu mayesi elmi qrupumuz tərəfindən ətraflı analiz edilmişdir və mümkün ədəbiyyat nəticələri ilə müqayisə edilmişdir [11]. Metanolun özlülüyü isə müasir ədəbiyyat standartından [13] götürülmüşdür. Hesabatlar nəticəsində {$x$$CH_3OH$+(1-$x$)[BMİM][$PF_6$]} binar qarışığının izafi özlülüyünün η^E neqativ asılılıq şəklində alınması qarışığı təşkil edən komponentlərin molekullarının müxtəlif ölçüdə, formada olması və dipolyar assosiasiyanın zəifləyərək yox olması nəticəsində qarışığın özlülüyünün azalması ilə izah edilir. Ölçüləri əhəmiyyətli dərəcədə fərqlənən müxtəlif molekulların H-rabitələri və nəql komplekslərinin yükləri kimi xüsusi qarşılıqlı təsirlər də burada mühüm rol oynayır. Belə ki, qarışma zamanı H-rabitələrinin qarışıqda azalması çox güman ki, izafi özlülüyü azaldır. İzafi özlülüyün azalmasında başqa maraqlı fakt kimi müxtəlif ölçülü molekulların dispersiya qüvvəsinin xüsusi rol oynadığını da göstərmək olar.



Şəkil 3

{$x$$CH_3OH$+(1-$x$)[BMİM][$PF_6$]} binar qarışığının T=(263.15÷413.15)K temperatrur intervalında izafi özlülüyünün η^E metanolun x mol fraksiyasından asılılığı: ◆- 263.15K; ■- 273.15K; ▲- 283.15K; ●- 293.15K; ◇- 303.15K; □- 313.15K; △- 323.15K; ○- 333.15K; x- 343.15K; ◆- 353.15K; ■- 363.15K; ▲- 373.15K; ●- 383.15K; ◇- 393.15K; □- 403.15K; △- 413.15K.

{$x$$CH_3OH$+(1-$x$)[BMİM][$PF_6$]} binar qarışığının təcrübə vasitəsi ilə alınmış nəticələri hər iki ədəbiyyat [4-5] nəticələri ilə müqayisə edilmişdir. Müqayisə nəticəsində [4] ədəbiyyatında dərc edilmiş 14 təcrübə nəticələri ilə $\Delta\eta/\eta$=±21.67% və [5] ədəbiyyatında dərc edilmiş 30 təcrübə nəticələri ilə $\Delta\eta/\eta$=±45.19% xəta alınmışdır. [4] ədəbiyyatının

nəticələri əsasən bizim nəticələrdən həm az, həm də çox olduqları halda, [5] ədəbiyyatının nəticələri bizim nəticələrdən əsasən çoxdurlar.

XÜLASƏ

{xCH$_3$OH+(1-x)[BMİM][PF$_6$]} binar qarışığının temperaturun geniş intervalında, atmosfer və doyma təzyiqlərində dinamik özlülükləri analiz edilmişdir. Alınmış nəticələr uyğun olan ədəbiyyat qiymətləri ilə müqayisə edilmişdir. Qarışığın izafi özlülüyü η^E hesablanmışdır. Yüksək temperaturlarda özlülüyün nəticələrini analiz etmək üçün alınmış nəticələr T=413.15K və doyma təzyiqlərində ekstrapolyasiya edilmişdir. Ölçülmüş və ekstrapolyasiya ilə hesablanmış özlülük qiymətlərinin temperaturdan asılılığı polinomial tənliyin köməyi ilə yazılmışdır.

1. P.Wasserscheid, T.Welton (eds.). *Ionic Liquids in Synthesis, Wiley-VCH, Weinheim,* (2003) 364.
2. Edited by Scott T.Handy. *Applications of Ionic Liquids in Science and Technology, Published by InTech,* (2011) 516.
3. L.Moens, D.M.Blake, D.L.Rudnicki, M.J.Hale. *Advanced Thermal Storage Fluids for Solar Parabolic Trough Systems, Transactions of the ASME,* **123** (2003) 112-116.
4. M.Zafarani-Moattar, R.Majdan-Cegincara. *Viscosity, Density, Speed of Sound, and Refractive Index of Binary Mixtures of Organic Solvent+Ionic Liquid, 1-Butyl-3-methylimidazolium Hexafluorophosphate at 298.15K, Journal of Chemical & Engineering Data,* **52** (2007) 2359-2364.
5. M.Moosavi, A.Daneshvar, E.Sedghamiz. *Rheological properties of {[bmim]PF$_6$+methanol} mixtures at different temperatures, shear rates and compositions, Journal of Molecular Liquids,* **209** (2015) 693-705.
6. Betriebsanleitung, *SVM 3000/G2 Stabinger Viskosimeter Firmware Version: 3.0.0., Anton Paar GmbH, Graz, Österreich,* (2009) 52.
7. *Betriebsanleitung MCR Serie, Modular Compact Rheometer MCR 52/MCR 102/MCR 302,* Veröffentlicht von Anton Paar, Druck: Anton Paar, Österreich, (2016) 60.
8. J.Safarov, G.Huseynova, M.Bashirov, E.Hassel, I.Abdulagatov. *Viscosity of 1-ethyl-3-methylimidazolium methanesulfonate over a wide range of temperature and Vogel-Tamman-Fulcher model, Physics and Chemistry of Liquids,* **56** (2018) 703-717.
9. J.Safarov, F.Lesch, Kh.Suleymanli, A.Aliyev, A.Shahverdiyev, E.Hassel, I.M.Abdulagatov. Viscosity, *Density, Heat Capacity, Speed of Sound and other Derived Properties of 1-Butyl-3-Methylimidazoliumtris(Pentafluoroethyl)Trifluorophosphate over a Wide Range of Temperature and at Atmospheric Pressure, Journal of Chemical & Engineering Data,* **62 (**2017) 3620-3631.
10. J.Safarov, U.Ashurova, B.Ahmadov, A.Shahverdiyev, E.Hassel. *Viscosity of 1-Butanol and Diesel fuel blends, Journal of Processes of Petrochemistry and Oil Refining,* **18** (2017) 316-330.
11. A.Namazova, X.Süleymanlı, A.Əliyev, C.Səfərov, A.Şahverdiyev, E.Hassel. *1-butil-3-metilimidazolium tetraflüoroborat və 1-butyl-3-metilimidazolium heksaflüorofosfat ionlu mayelərinin özlülüklərinin təcrübi araşdirilmasi, Azərbaycan Texniki Universitetinin elmi xəbərləri,* №4 (2016) 46-53.
12. A.Əhmədov, M.Bəşirov, C.Səfərov, E.Hassel. *Azərbaycanın Qax və Qəbələ rayonlarının geothermal sularının özlülüyü, Journal of Qafqaz University,* **2** (2014) 47-53.
13. H.W.Xiang, A.Laesecke, M.L.Huber, *A New Reference Correlation for the Viscosity of Methanol, Journal of Physical and Chemical Reference Data,* **35** (2006) 1597-1620.

VISCOSITY OF 1-BUTYL-3-METHYLIMIDAZOLIUM HEXAFLUOROPHOSPHATE AND METHANOL BINARY MIXTURES AT AMBIENT PRESSURE

KH.SULEYMANLI

The viscosity values $\eta(p_0,T)$/Pa·s of of 1-butyl-3-methylimidazolium hexafluorophosphate and methanol binary mixtures {xCH$_3$OH+(1-x)[BMİM][PF$_6$]} at ambient pressure and temperatures T=(263.15÷413.15)K have been investigated using the Anton Paar SVM 3000 Stabinger viscometer and MCR 302 reometer within an uncertainty of $U_c(\eta)$=0.001Pa·s. The obtained experimental values have been compared with the available literature values.

ВЯЗКОСТЬ БИНАРНЫХ СМЕСЕЙ 1-БУТИЛ-3-МЕТИЛИМИДАЗОЛИЙ ГЕКСАФТОРФОСФАТА И МЕТАНОЛА ПРИ АТМОСФЕРНОМ ДАВЛЕНИИ

Х.СУЛЕЙМАНЛЫ

Представлены значения экспериментальных исследований вязкости $\eta(p_0,T)$/Pa·s бинарных смесей 1-бутил-3-метилимидазолий гексафторфосфата и метанола при атмосферном давлении и температурах T=(263.15÷413.15)K, которые были исследованы с помощью вискозиметра установок Anton Paar SVM 3000 Stabinger и реометра MCR 302 в пределах погрешности $U_c(\eta)$=0.001Pa·s. Проведено сравнение полученных экспериментальных значений с имеющими литературными данными.

UOT 538.975; 537.226.4

$FeGa_2S_4$ KRİSTALININ DİELEKTRİK NÜFUZLUĞUNUN DƏYİŞƏN ELEKTRİK CƏRƏYANININ TEZLIYINDƏN VƏ TEMPERATURDAN ASILILIĞI

N.N.NİFTİYEV, F.M.MƏMMƏDOV*

Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az-1000, Bakı, Ü. Hacıbəyov, 34
*AMEA Kataliz və Qeyri – üzvi Kimya İnstitutu**
Az-1143, Bakı, H. Cavıd pr., 113
namiq7@bk.ru

Daxil olub: 21.05.2019
Çapa verilib: 01.09.2019

Açar sözlər: kristal, dielektrik nüfuzluğu, aktivləşmə enerjisi, tezlik, temperatur, relaksasiya müddəti, polyarizasiya mexanizmi

REFERAT

$FeGa_2S_4$ kristalının müxtəlif temperatur və tezliklərdə dielektrik nüfuzluğunun həqiqi və xəyali hissəsi tədqid edilmişdir. Müəyyən edilmişdir ki, temperatur yüksəldikcə dielektrik nüfuzluğunun artması əsasən yükdaşıyıcıların konsentrasiyasının artması ilə bağlıdır. Tədqiq olunan temperaturlarda dielektrik nüfuzluğunun xəyali hissəsi tezliklə tərs mütənasib olaraq azalır. Bu kristal üçün aktivləşmə enerjisi hesablanmış və ΔE_1=0,13÷0,03eV və ΔE_2=0,20÷0,14eV qiymətləri tapılmışdır. $FeGa_2S_4$ kristalında relaksasiya müddəti hesablanmış və istilik hərəkəti ilə şərtlənən elektron polyarizasiya mexanizminin olması müəyyən edilmişdir.

Son illər qeyri-adi fiziki xassələri və praktik tətbiqləri sayəsində d və f təbəqələri tamamilə dolmayan elementlər daxil olan üçlü xalkoqenit birləşmələr intensiv tədqiqatların obyektinə çevrilmişdir. Bu birləşmələr içərisində müasir yarımkeçiricilər elektronikasının funksional imkanlarını genişləndirən əsas mənbələrdən biri kimi AB_2X_4 (A: Mn, Fe, Co, Ni; B-Ga, In; X: S, Se, Te) tipli birləşmələri göstərmək olar[1-10]. Bu birləşmələr müxtəlif təyinatlı elektron qurğuların yaradılması üçün perspektivlidir. Hal-hazırkı işdə qeyd edilən birləşmələr sinfinə aid $FeGa_2S_4$ kristalının dielektrik nüfuzluğunun dəyişən elektrik cərəyanının tezliyindən və temperaturdan asılılığı tədqiq edilmişdir. $FeGa_2S_4$-ün bəzi elektrofiziki xassələri [2,8,11-13] işlərində öyrənilmişdir. $FeGa_2S_4$ kristalı stexiometrik miqdarda yüksək təmizlikli elementlərdən (99,99) alınmışdır. Rentgenoqrafik tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, $FeGa_2S_4$ kristal qəfəs parametrləri a=3,67 və c=12,07Å olan triqonal (α-$Fe_2Ga_2S_4$) quruluşa malikdir [14]. Elektrik tutumunu ölçmək üçün qalınlığı ~0,5mm olan kristal lövhələrə gümüş pastası vuraraq kondensatorlar hazirlanmış və ölçülmələr E7-20 ($25\div10^6$Hz) rəqəmli immetans ölçü cihazının köməyi ilə aparılmışdır. Nümunəyə 1V ölçmə gərginliyi verilmişdir.

Şəkil 1-də $FeGa_2S_4$ üçün müxtəlif temperaturlarda dielektrik nüfuzluğunun həqiqi hissəsinin tezlikdən asılılıq qrafiki verilmişdir. Buradan görünür ki, 294÷380K temperatur intervalında $10^4\div2\cdot10^5$Hz tezlik oblastında tezlik artdıqca ε' azalır. $2\cdot10^5$Hz tezlikdən başlayaraq ε' tezlik yüksəldikcə artır. 359K temperaturdan başlayaraq $3\cdot10^5\div5\cdot10^5$Hz tezlik oblastında əvvəlcə ε' sabit qalır, sonra isə temperatur artdıqca yavaş-yavaş azalır. Tədqiq olunan tezliklərdə isə temperatur yüksəldikcə ε'-nin artması müşahidə edilir. Bunu belə izah etmək olar: məlumdur ki, dielektrik və yarımkeçiricinin elektrik keçiriciliyi yüksək olarsa paralel dövrə ilə birləşən zaman ε' aşağıdakı düsturla xarakterizə olunur [15]

$$\varepsilon' = \frac{\sigma}{\varepsilon_o \omega tg\delta}, \qquad (1)$$

burada $\omega = 2\pi f$ dairəvi tezlik, $tg\delta$ dielektrik itki bucağıdır.



Şəkil 1

$FeGa_2S_4$ kristalı üçün müxtəlif temperaturlarda dielektrik nüfuzluğunun həqiqi hissəsinin elektrik sahəsinin tezliyindən aslılığı. T, K:
1-294, 2-314, 3-334, 4-349, 5-359, 6-369, 7-379.

Yarımkeçiricilərdə elektrik keçiriciliyi temperatur artdıqca əsasən yükdaşıyıcıların konsentrasiyasının artması hesabına artır. Düsturdan göründüyü kimi dielektrik nüfuzluğu σ ilə düz mütənasibdir və tgδ temperaturdan asılı olaraq zəif dəyişir. Ona görə də temperatur artdıqca σ artır və ona uyğun ε'-da artır. Deməli, temperatur yüksəldikcə dielektrik nüfuzluğunun artması əsasən yükdaşıyıcıların konsentrasiyasının artması ilə bağlıdır.

Şəkil 2-də $FeGa_2S_4$ kristalı üçün 294÷369K temperatur intervalında dielektrik nüfuzluğunun xəyali hissəsinin (ε") tezlikdən asılılıq qrafiki təsvir edilmişdir.



Şəkil 2

$FeGa_2S_4$ kristalı üçün müxtəlif temperaturlarda dielektrik nüfuzluğunun xəyali hissəsinin elektrik sahəsinin tezliyindən aslılığı. T, K:
1-294, 2- 314, 3-334, 4-349, 5-359, 6-369.

Şəkildən görünür ki, tədqiq olunan temperaturlarda $10^4 \div 2\cdot10^5$Hz tezlik intervalında tezlik artdıqca ε" sürətlə azalır. $2\cdot10^5 \div 5\cdot10^5$Hz tezliklərində isə ε" demək olar ki, sabit qalır.

ε'~F(f) və *ε"~F(f)* asılılıqlarından görünür ki, müxtəlif temperaturlarda hər iki asılılıq üçün əyrilərin xarakterləri bir-birinə bənzəsə də aşağı tezliklərdə ε" tezlikdən asılı olaraq daha sürətlə azalır və $tg\delta \sim F(f)$ [13] asılılığına daha çox oxşayır.

Şəkil 3-də $FeGa_2S_4$ kristalında müxtəlif tezliklərdə dielektrik nüfuzluğunun həqiqi hissəsinin temperaturdan asılılıq qrafiki təsvir edilmişdir. Şəkildən görünür ki, tədqiq olunan maddədə termik aktivləşmə ilə ε'-in artımı müşahidə edilir. 294÷380K temperatur intervalında və $10^4 \div 5\cdot10^5$ Hz tezliklərdə dielektrik nüfuzluğunun həqiqi hissəsinin qiyməti 240÷2000 həddində dəyişir. Şəkildən görünür ki, $\ell g\varepsilon' \sim 10^3/T$ asılılığı müxtəlif meyllərə malik iki düz xətdən ibarətdir. Aşağı temperaturlu və yüksək temperaturlu oblastlarda tezlik artdıqca əyrilərin meylliliyi azalır. Bu meyllərdən tapılmış aktivləşmə enerjiləri də həmçinin uyğun olaraq 0,13÷0,03eV və 0,20÷0,14eV intervalında azalır.



Şəkil 3

$FeGa_2S_4$ kristalı üçün elektrik sahəsinin müxtəlif tezliklərində dielektrik nüfuzluğunun həqiqi hissəsinin temperaturdan aslılığı. f, Hz:
1-10^4, 2- $2\cdot10^4$, 3-$5\cdot10^4$, 4-10^5, 5-$2\cdot10^5$.

Məlumdur ki, dielektrik nüfuzluğunun həqiqi və xəyali hissəsi üçün Debay tənlikləri aşağıdakı kimidir [16]

$$\varepsilon' = \varepsilon_\infty + \frac{\varepsilon_s - \varepsilon_\infty}{1+\omega^2\tau^2}, \qquad (2)$$

$$\varepsilon' = \frac{\sigma}{\varepsilon_o \cdot \omega} + \frac{(\varepsilon_s - \varepsilon_\infty)\omega\tau}{1+\omega^2\tau^2}. \qquad (3)$$

(2) və (3) ifadələrindəki ε' və ε''-in temperatur asılılığı tədqiq olunan maddələrin relaksasiya müddətinin (τ) və elektrik keçiriciliyinin (σ) temperatur asılılığından təyin olunur. ε' və ε''-in tezlik asılılığı elektrik keçiriciliyin mexanizmindən asılı olur (keçiriciliyin zona mexanizmi zamanı $\sigma \neq \sigma(\omega)$ və sıçrayış mexanizmi zamanı isə $\sigma = \sigma(\omega)$ olur).

Keyfiyyət tərəfdən ε' və ε''-in temperatur və tezlik asılılıqlarına nəzər yetirək. Fərz edək tədqiq olunan material keçirici dielektrik və pis keçirən yarımkeçiricidir. Onda aşağı tezlikli oblast üçün ($\omega\tau << 1$) (2) və (3) ifadələrindən alarıq

$$\varepsilon' = \varepsilon_s = const \qquad (4)$$

$$\varepsilon'' = (\varepsilon_s - \varepsilon_\infty)\omega\tau + \frac{\sigma}{\varepsilon_0 \cdot \omega}. \qquad (5)$$

(4)-dən görünür ki, aşağı tezlikli oblastda həqiqi dielektrik nüfuzluğu (ε') sabit olur və statik dielektrik nüfuzluğuna (ε_s) bərabər olur.

Dielektrik nüfuzluğunun xəyali hissəsi (5) ifadəsinin II həddinə görə tezlik artdıqca azalmalıdır. Dielektrik nüfuzluğunun xəyali hissəsinin dəyişən cərəyanın tezliyindən asılılıqlarının tədqiqi nəticəsində (Şəkil 2) aşkara çıxarılmışdır ki, aşağı tezliklərdə tezlik artdıqca ε'-in bütünlüklə azalması baş verir.

Debay tənliklərinin təqribiliyinə baxmayaraq onlardan relaksasiya müddətinin qiymətini hesablamaq olar. Doğrudan da (4) və (5)-də sadə çevrilmələr aparmaqla almaq olar

$$\varepsilon' = \varepsilon_\infty + \frac{1}{\tau} \cdot \frac{\varepsilon''}{\omega}. \qquad (6)$$

(6) ifadəsindən görünür ki, ε_∞ yüksək tezlikli dielektrik nüfuzluğunun qiymətini və τ relaksasiya müddətini ε'=f(ε''/ω) asılılığından alınan düz xəttin ordinat oxu ilə kəsişməsindən və bu düz xəttin tangens bucağından təyin etmək olar. Otaq temperaturunda ε'=f(ε''/ω) təcrübi asılılığı $FeGa_2S_4$ kristalı üçün Şəkil 4-də göstərilmişdir. Şəkildən görünür ki, ε'=f(ε''/ω) asılılığında bütövlükdə xəttilik müşahidə olunur. Bu asılılıqdan ε_∞ və τ-nin qiymətləri hesablanmışdır və ε_∞ =243, τ=6·10^{-5}san bərabər olur.



Şəkil 4
$FeGa_2S_4$ kristalı üçün otaq temperaturunda ε' ~ f(ε''/ω) aslılığı.

Relaksasiya müddətini bilməklə bu birləşmədə polyarizasiya mexanizmi haqqında fikir söyləmək olar. Məlumdur ki, istilik hərəkəti ilə şərtlənən elektron polyarizasiyası zamanı relaksasiya müddəti 10^{-2}÷10^{-7} saniyəyə bərabər olur. $FeGa_2S_4$ kristalında polyarizasiya zamanı relaksasiya müddəti 6·10^{-5}san. qiymətini alır. Bu da istilik hərəkəti ilə şərtlənən elektron polyarizasiyasına uyğun gəlir. Bu polyarizasiya mexanizmi bərk dielektriklər üçün xarakterikdir [16].

Beləliklə, işdə $FeGa_2S_4$ kristalının müxtəlif temperatur və tezliklərdə dielektrik nüfuzluğunun həqiqi və xəyali hissəsi tədqid edilmişdir. Müəyyən edilmişdir ki, temperatur yüksəldikcə dielektrik nüfuzluğunun artması əsasən yükdaşıyıcıların konsentrasiyasının artması ilə bağlıdır. Tədqiq olunan temperaturlarda $FeGa_2S_4$ kristalının dielektrik nüfuzluğunun xəyali hissəsi tezliklə tərs mütənasib olaraq azalır. Bu kristal üçün aktivləşmə enerjisi hesablanmış və ΔE_1=0,13÷0,03eV və ΔE_2=0,20÷0,14eV qiymətləri tapılmışdır. $FeGa_2S_4$ kristalında relaksasiya müddəti hesablanmış və istilik hərəkəti ilə şərtlənən elektron polyarizasiya mexanizminin olması müəyyən edilmişdir.

1. Н.Н.Нифтиев, Ф.М.Мамедов, В.И.Гусейнов, С.Ш.Курбанов. *Электропроводность монокристаллов $FeIn_2Se_4$ на переменном токе, ФТП,* **52** (2018) 535-537.
2. B.R.Myoung, J.T.Lim, C.S.Kim. *Investigation of magnetic properties on spin-ordering effects of $FeGa_2S_4$ and $FeIn_2S_4$, Journal of Magnetism and Magnetic Materials,* **438** (2017) 121-125.
3. N.N.Niftiev, O.B.Taqiev. *Optical absorption and photoconductivity of $MnGaInS_4$ single crystals in polarized light, Optics and spectroscopy,* **122** (2017) 926-928.
4. S.V.Trukhanova, I.V.Bodnar, M.A.Zhafar. *Magnetic and electrical properties of $(FeIn_2S_4)_{1-x}(CuIn_5S_8)_x$ solid solutions, Journal of Magnetism and Magnetic Materials,* **379 (**2015) 22-27.
5. C.Rincóna, T.E.Torrresbde, V.Sagredo, S.J.Jiménez-Sandovalc, E.Mares-Jacintoc. *The fundamental absorption edge in $MnIn_2Se_4$ layer semimagnetic semiconductor, Physica B: Condensed Matter,* **477** (2015) 123-128.
6. Н.Н.Нифтиев, М.Б.Мурадов, Ф.М.Мамедов О.Б.Тагиев,. *Электрические свойства $FeIn_2S_4$ на переменном токе, Журнал технической физики,* **82** (2012) 147-149.
7. V.Sagredo, G.Attolini, N.Musayeva. *$Mn_{1-x}Fe_xIn_2Se_4$ single crystals and their electrical Properties, Materials Engineering and Technology,* **2** (2009) 29-37.
8. K.Rushchanskii, H.Haeuseler, D.Bercha. *Band structure calculations on the layered compounds $FeGa_2S_4$ and $NiGa_2S_4$, J. of physics and chemistry of solids,* **63** (2008) 2019-2028.
9. M.Quintero, M.Morocoima, E.Guerrero, J.Ruiz. *Temperature variation of lattice parameters and thermal expansion coefficients of the compound $MnGa_2Se_4$, Physica status solidi (a),* **146** (2006) 587-593.
10. C.Xiangying, Z.Zhongjie, Z.Xingta, et al. *Hydrothermal synthesis of porous $FeIn_2S_4$ microspheres and their elektrochemical properties, J. of Crystal Growth,* **277** (2005) 524-528.
11. N.N.Niftiev, M.A.Alidzhanov, O.B.Tagiev, M.B.Muradov, F.M.Mamedov. *Elektrical properties of $FeGa_2S_4$, Ukr. C. Phys.,* **49** (2004) 579-581.
12. N.N.Niftiyev, O.B.Tağıyev, Z.F.Hacıyeva, F.M.Məmmədov. *$FeGa_2S_4$-ün dəyişən elektrik sahəsində elektrikkeçiriciliyi, Transactions of National Academy of Science of Azerbaijan, series of physics-mathematical and technical sciences, Physics and Astronomy,* **XXX** №**5** (2010) 166-168.
13. N.N.Niftiyev, O.Б.Tağıyev, A.A.Nəbiyev, Ф.M.Məmmədов, F.A.Kazımova. *$FeGa_2S_4$-ün dielektrik itkisinin tezlik və temperaturdan asılılığı, Transactions of National Academy of Science of Azerbaijan, series of physics-mathematical and technical sciences, Physics and Astronomy,* **XXXI** №2 (2011) 78-81.
14. L.Dogguy-Smiri, M.Pardo, N.Dung. *Edude cristallographique du sisteme FeS-Ga_2S_3, C. R. Akad. Sc.,* **287** (1978) 415-418.
15. Ю.М.Поплавко. *Физика диэлектриков, Высшая школа,* (1980) 400.
16. П.Г.Орешкин. *Физика полупроводников и диэлектриков М., Высшая школа,* (1977) 448.

DEPENDENCE OF DIELEKTRIK CONSTANT OF CRISTALS $FeGa_2S_4$ ON FREQUENCY OF ALTERNATING ELECTRIC CURRENTS AND TEMPERATURE

N.N.NIFTIYEV, F.M. MAMMADOV

The real and imaginary part of the dielectric constant of $FeGa_2S_4$ crystals at various temperatures and frequencies has been studied. It was found that as temperature gets higher, increase of dielectric influence was mainly connected to rise of concentration of charge carriers. The imaginary part of the dielectric influence gets lower inversely proportionally in the studied temperatures soon. The activation energy for these crystals has been calculated and ΔE_1= 0,13÷0,03eV və ΔE_2= 0,20÷0,14 eV values found. The reaction term has been calculated in $FeGa_2S_4$ and electronic polarization mechanism conditioned by heating move was determined in this crystal.

ЗАВИСИМОСТЬ ДИЭЛЕКТРИЧЕСКОЙ ПРОНИЦАЕМОСТИ КРИСТАЛЛОВ $FeGa_2S_4$ ОТ ЧАСТОТЫ ПЕРЕМЕННОГО ТОКА И ТЕМПЕРАТУРЫ

Н.Н.НИФТИЕВ, Ф.М.МАМЕДОВ

Приведены результаты исследования действительной и мнимой части диэлектрической проницаемость кристаллов $FeGa_2S_4$ при различных частотах и температурах. Установлено, что рост диэлектрической проницаемости связан с ростом концентрации носителей тока при возрастании температуры. При исследуемых температурах мнимая часть диэлектрической проницаемости кристаллов $FeGa_2S_4$ уменьшается обратно пропорционально с частотой. Для этих кристаллов рассчитана энергия активации и найдено значение ΔE_1=0,13÷0,03эВ и ΔE_2=0,20÷0,14эВ. Для $FeGa_2S_4$ рассчитано время релаксации и установлено, что в этом кристалле наблюдается механизм электронной поляризации, обусловленная тепловым движением.

PACS: 81.05. Gc

As-Se, As-Se-S və As-Se-Te ŞÜŞƏVARİ SİSTEMLƏRİNİN OPTİK XASSƏLƏRİ VƏ ONLARDA ELEKTRON FONON QARŞILIQLI TƏSİRİ

R.İ.ƏLƏKBƏROV

AMEA-nın Fizika İnstitutu
Az 1143, Bakı, H.Cavid pr. 131
Rahim-14@mail.ru

Daxil olub: 21.05.2019
Çapa verilib: 01.09.2019

REFERAT

İşdə $As_{40}Se_{60}$, $As_{40}Se_{30}S_{30}$, $As_{40}Se_{30}Te_{30}$, $As_{33,3}Se_{33,3}S_{33,4}$ $As_{33,3}Se_{33,3}Te_{33,4}$ xalkogenid şüşələri rentgen şüalarının diffraksiyası, işığın Raman səpilməsi və optik udulma metodları ilə tədqiq edilərək maddənin amorfluğu sübut olunmuş, matrisanı əmələ gətirən əsas quruluş elementləri, kimyəvi rabitələrin növləri tapılmışdır. Urbax udma kənarının temperaturdan və kimyəvi tərkibdən asılılıqları elektron-fonon qarşılıqlı təsirinin kimyəvi tərkibdən asılı olaraq dəyişməyə məruz qalması ilə izah olunmuşdur.

Açar sözlər: xalkogenid şüşə, amorf, fonon.

GİRİŞ

Hazırda aparılan işlərin müfəssəl təhlili göstərir ki, xalkogenid şüşəvari maddələr spektrin infraqırmızı oblastında yüksək şəffaflığı, kimyəvi stabilliyi və o cümlədən yüksək sındırma əmsalına malik olması ilə tədqiqatçıların diqqətini cəlb edir[1,2]. Bu baxımdan As-Se-S xalkogenid şüşəvari sistemləri xüsusilə geniş şəffaflıq oblastının və yüksək qeyri xətti optik xassələrinin olması ilə fərqlənir[3]. Digər tərəfdən tərkibində tellur olan As-Se-Te şüşəvari sisteminin spektrin orta və uzaq infraqırmızı oblastlarında yüksək şəffaflığının olması ilə yanaşı, yüksək sındırma əmsalına da malikdir[4]. Sözü gedən tədqiqatların nəticələri onu deməyə imkan verir ki, Raman spektroskopiyası metodu nizamsız quruluşlu xalkogenid şüşələrin lokal quruluşunu öyrənmək üçün mühüm tədqiqat metodu hesab olunur. Yəni, müxtəlif binar və çox komponentli xalkogenid şüşələrin Raman səpilmə spektrlərinin analizi nəticəsində şüşəvari matrisi əmələ gətirən homo və heteropolyar əlaqələrin və habelə quruluş elementlərinin rolu, təbiəti haqqında dolğun mühakimə yürütmək, lokal quruluş və fiziki xassələr arasında korrelyasiya yaratmağa nail olmaq mümkündür.

Məqalənin əsas ideyası As_2Se_3, $As_{40}Se_{30}S_{30}$, $As_{40}Se_{30}Te_{30}$, $As_{33,3}Se_{33,3}S_{33,4}$ $As_{33,3}Se_{33,3}Te_{33,4}$ tərkiblərinin vakuumda termik buxarlandıma üsulu ilə alınan nazik təbəqələrində Raman səpilmə spektrlərinin analizinə əsasən elektron-fonon qarşılıqlı təsirlərində mümkün lokal quruluş elementlərinin rolunu müəyyənləşdirməkdir.

TƏCRÜBƏNİN METODİKASI VƏ NÜMUNƏLƏRİN ALINMASI

$As_{40}Se_{60}$, $As_{40}Se_{30}Te_{30}$, $As_{40}Se_{30}S_{30}$, $As_{33,3}Se_{33,3}S_{33,4}$, $As_{33,3}Se_{33,3}Te_{33,4}$ xalkogenid şüşəvari tərkiblərinin sintezi ortasından tilinə perpendikulyar istiqamətdə yerləşən ox ətrafında fırlanan silindrik soba üsulu ilə yerinə yetirilmişdir. Sintez üçün tərkibə daxil olan xüsusi təmiz (99,9999%) elementlərdən müvafiq miqdarda elekton tərəzidə çəkib götürməklə, daxili diametri 14÷16mm və havası 10^{-4}tor təzyiqə qədər sorulmuş kvars ampulalara doldurulmuşdur. Fırlanan soba üsulunun seçilməsi alınmış məhlulun homogenliyini artırmaq məqsədi ilə nəzərdə tutulmuş və sintez prosesi 950°C-dən yuxarı temperaturda aparılmaqla bu temperaturda 12 saat ərzində saxlanılmışdır. Belə yüksək temperatur tərkibə daxil olan bütün komponentlərin mümkün qədər az özlülüklə bir-birinə

qarışmasını təmin etmək məqsədilə yaradılmışdır. Sintez prosesinin sonunda xəlitənin soyudulması sobanın sönmə rejimini əldə etdikdən sonra havada yerinə yetirilmişdir. Sintez olunan nümunələrin sıxlıqları aşağıdakı düstura əsasən hesablanmışdır.

$$\rho = \left[\frac{w_0}{(w_0 - w_L)}\right]\rho_L, \qquad (1)$$

burada ρ-sintez olunan maddənin, ρ_L - mayenin (distillə olunmuş su) sıxlığı, w_0 və w isə maddənin havada və mayedə(suda) çəkiləridir. Hesablama zamanı mayenin(suyun) sıxlığı otaq temperaturunda 1q/cm^3-ə bərabər götürülmüşdür. Sintez olunan $As_{40}Se_{60}$, $As_{40}Se_{30}S_{30}$, $As_{40}Se_{30}Te_{30}$, $As_{33,3}Se_{33,3}S_{33,4}$, $As_{33,3}Se_{33,3}Te_{33,4}$ tərkiblərinin sıxlığını ölçmək üçün Arximed qanununa əsaslanan piknometrik metoddan istifadə olunmuşdur.Təcrübənin dəqiqliyi ±0.02q/cm^3 tərtibindədir. Alınmış nazik təbəqələrin amorfluğu rentgendifraksiya analizi ilə təsdiq olunmuşdur. Difraksiya mənzərəsində geniş maksimumların müşahidə olunması tədqiq olunan nazik təbəqələrdə kristallaşmaya məruz qalan oblastların olmadığını sübut edir (Şəkil.1).



Şəkil1

Rentgen difraksiya spektrləri:1-$As_{40}Se_{60}$, 2-$As_{40}Se_{30}S_{30}$, 3-$As_{40}Se_{30}Te_{30}$, 4-$As_{33,3}Se_{33,3}S_{33,4}$, 5-$As_{33,3}Se_{33,3}Te_{33,4}$.

Alınmış tərkiblərdə işığın Raman səpilməsi təcrübələri şüşə altlıqlar üzərinə 1.33x10^{-4}Pa təzyiqli vakuumda termik buxarlandırma üsulu ilə d=10mk qalınlıqlı nazik amorf təbəqələrdə yerinə yetirilmişdir. Bu tədqiqatlar üçölçülü konfokal lazer mikrospektroqrafında (Türkiyə,Tubitak) aparılmışdır. Həyəcanlaşdırıcı mənbə olaraq gücü p=25mW və λ=632.8nm dalğa uzunluğunda işləyən He-Ne lazeri istifadə olunmuşdur.Nazik təbəqə üzərinə düşən lazer şüasının en kəsiyinin radiusu ~1μm-dur, ekspozisiya müddəti 1÷90s olmuşdur.

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Şəkil 2-də $As_{40}Se_{60}$, $As_{40}Se_{30}S_{30}$, $As_{40}Se_{30}Te_{30}$, $As_{33,3}Se_{33,3}S_{33,4}$ $As_{33,3}Se_{33,3}Te_{33,4}$ xalkogenid şüşələrdə işığın Raman səpilmə spektrləri göstərilmişdir. Göründüyü kimi, kimyəvi tərkibin dəyişməsi nəticəsində tədqiq olunan maddələrin Raman səpilmə spektrləri əhəmiyyətli dərəcədə dəyişməyə məruz qalır.



Şəkil 2

$As_{40}Se_{60}$, $As_{40}Se_{30}S_{30}$, $As_{40}Se_{30}Te_{30}$, $As_{33,3}Se_{33,3}S_{33,4}$ $As_{33,3}Se_{33,3}Te_{33,4}$ xalkogenid şüşələrdə işığın Raman səpilmə spektrləri.

Şəkil 2-də $As_{40}Se_{60}$-ə məxsus olan Raman səpilmə spektri 195÷295см$^{-1}$ tezlikləri intervalını əhatə edən səpilmə zolağına malik olub, tədqiq olunan maddəyə məxsus amorf matrisanı əmələ gətirən $AsSe_3$-əsas quruluş elementinə aid 223см$^{-1}$pik mü-

şahidə olunur [5,6]. Spektrin səpilmə zolağının 238÷258см$^{-1}$ tezlikləri intervalında nisbətən zəif müşahidə olunan piklər arsenium atomları ilə əlaqəsi olmayan həlqəvi və zəncirvari selen molekulları [6,7] ilə, tezliyin 260÷280см$^{-1}$ intervalında olan kiçik maksimumlar isə $AsSe_3$ piramidal və ya digər As_4Se_4 [5,8] quruluş elementləri arasında körpü əlaqələrinə məxsus rəqslərlə bağlıdır. Beləliklə, $As_{40}Se_{60}$-ə məxsus amorf matrisanın yaranmasında əsasən As-Se heteropolyar rabitələr və az miqdarda selen, arsenium atomları arasında yaranan Se-Se, As-As homopolyar rabitələr iştirak edir. Tədqiq olunan $As_{40}Se_{30}S_{30}$ şüşəvari tərkibinin Raman spektri müəyyən dəyişikliklə $As_{40}Se_{60}$-ə məxsus spektrdəki mövcud səpilmə zolaqlarına malik olması ilə yanaşı 280÷400см$^{-1}$ tezliklər intervalını əhatə edən səpilmə zolağına və 223, 243см$^{-1}$ maksimumları arasında zolağa malikdir. Spektrdə müşahidə olunan birinci səpilmə zolağı selen atomlarının müəyyən hissəsinin kükürd atomları ilə əvəz olunduğu əsas piramidal quruluş elementlərinə uyğun gəlir. Nəticədə selenin kükürdlə əvəz olunması nəticəsində spektrdə müşahidə olunan 325÷355см$^{-1}$ tezlikləri zolağı AsS_3-növ piramidal quruluş elementləri ilə [9,10], 380÷400см$^{-1}$ intervalında olan səpilmə zolağı isə həmin AsS_3[9] elementlərin qarşılıqlı təsiri ilə əlaqədardır. $As_{33,3}Se_{33,3}S_{33,4}$ tərkibinə məxsus Raman spektrləri isə sonuncu səpilmə zolağının intensivliyinin artması ilə fərqlənən öncə sözü gedən tərkiblərə məxsus spektrlərdə olan bütün zolaqlara malik olmaqla yanaşı aşağı intensivlikli iti piklərin yox olması ilə özünü göstərir. Digər tərəfdən bütün maddələrin spektrlərinə məxsus tezliyin 173см$^{-1}$-ə uyğun qiymətində müşahidə olunan pikin tədqiq olunan tərkibdə intensivliyi qismən zəifləyir. Qeyd olunan xüsusiyyətin arseniumla zəngin olan bütün xalkogenid şüşələrin Raman səpilmə spektrlərində müşahidə olunması tərkibində As-As[11]olan quruluş elementləri ilə əlaqələndirilir .

$As_{40}Se_{30}Te_{30}$ şüşəvari tərkiblərinin spektrləri 100÷160см$^{-1}$ tezlik intervalını əhatə edən səpilmə zolaqlarına və 110, 136, 159, 176, 258см$^{-1}$ tezlikli maksimumlara malikdir. Spektrdə müşahidə olunan 110 və 136см$^{-1}$ tezlikli maksimumlar amorf matrisaya daxil oaln Se-As-Te zəncirinin asimmetrik valent modaları ilə bağlıdır [6]. Tədqiq olunan maddələrdə həmçinin müxtəlif müəlliflər [12,13] tərəfindən müşahidə olunan 159см$^{-1}$tezlikli pik Te-Te rabitələrinin rəqs modalarına aid edilir. Spektrdə müşahidə olunan 176см$^{-1}$ tezlikli maksimum As_2Te_3 [30] quruluş elementlərinin rəqs modalarına, maksimumu 259см$^{-1}$-ə uyğun gələn səpilmə zolağı isə Se-Se [6,7,15,16] əlaqələrinin rəqslərinə məxsus hesab olunur. Nəhayət stexiometrik olmayan $As_{33,3}Se_{33,3}Te_{33,4}$-ə aid Raman səpilmə spektrinin 108 və 136см$^{-1}$ tezliklərdəki maksimumların müşahidəsi ilə fərqlənməsi və tezliyin 259см$^{-1}$ qiymətində səpilmə zolağına məxsus intensivliyin güclənməsi ilə yanaşı $As_{40}Se_{30}Te_{30}$-ə məxsus olan bütün zolaqları özündə əks etdirir. Nəticədə, $As_{33,3}Se_{33,3}Te_{33,4}$ tərkibində ν=259см$^{-1}$ tezliyinə uyğun səpilmə zolağının intensivliyinin artması xalkogen atomlarının qalıq konsentrasiyası ilə bağlıdır.

İlk dəfə olaraq ion kristallarda [17] meydana gələn Urbax udulma kənarı və onun temperatur asılılığı elektron-fonon qarşılıqlı təsiri ilə (electron-phonon interaction (EPI)) əlaqələndirilir. Fotoinduksiya olunan quruluş dəyişmələri (Photoinduced structural change - PSC), o cümlədən fototündləşmə (photo-darkening) effektinin tədqiqi [18,19-22] göstərir ki, istər kristal, istərsə də amorf xalkogenidlərdə güclü elektron-fonon qarşılıqlı təsiri mövcuddur.

Elektron-fonon qarşılıqlı təsirinin parametrləri udma kənarının diklik parametrinin temperatur asılılığından (Şəkil 2) aşağıda təsvir olunan düstura əsasən alınır [20]

$$\sigma = \sigma_0 \left[\frac{2kT}{\hbar\omega_p}\right]\tanh\left[\frac{2kT}{\hbar\omega_p}\right], \qquad (2)$$

burada $\hbar\omega_p$ - elektron-fonon qarşılıqlı təsirini təsvir edən bir ossilyator modelində fononların effektiv enerjisi, σ_0 -isə Urbax udulma kənarının diklik dərəcəsini xarakterizə edən və tədqiq olunan obyektin materialından asılı olub, temperaturdan asılı olmayan parametrdir. Məqalədə fononların effektiv enerjisi ($\hbar\omega_p$) kimyəvi rabitə yaxınlaşması metodunun təməl prinsiplərini tətbiq edib amorf matrisaya daxil olan bütün kimyəvi rabitələrin faiz nisbətini nəzərə alaraq onların Raman səpilmə spektrindən orta rəqs enerjisi kimi təyin olunmuşdur (Şəkil 2). Sözü gedən parametrin ($\hbar\omega_p$) və σ_0 – ın yuxarıda ifadə olunan (1) - düsturuna əsa-

sən hesablanmış qiymətləri cədvəl 1-də təsvir olunmuşdur.

Cədvəl 1

Şüşəvari tərkib	σ_0	$\hbar\omega_p$, meV
$As_{40}Se_{60}$	0.28	27,6
$As_{40}Se_{30}Te_{30}$	0.141	24,5
$As_{40}Se_{30}S_{30}$	0.195	34.45
$As_{33.3}Se_{33.3}S_{33.4}$	0.194	35.32
$As_{33.3}Se_{33.3}Te_{33.4}$	0.0457	24.4776

Cədvəl 1-dən göründüyü kimi, tərkibində tellur olan nümunələr üçün $\hbar\omega_p$- parametrinin qiymətləri digərlərindən aşağı olub, [20] işinin nəticələri ilə uzlaşır. Həmçinin cədvəldən göründüyü kimi, üç-komponentli tərkiblər ($As_{40}Se_{30}S_{30}$ və $As_{33,3}Se_{33,3}S_{33,4}$) üçün $\hbar\omega_p$- parametrinin ədədi qiymətlərinin binar tərkiblərlə ($As_{40}Se_{60}$) müqayisədə yüksək olması mürəkkəb komponentli XŞY materiallarda güclü elektron-fonon qarşılıqlı təsirinin olduğunu sübut edir [22]. Cədvəl 1-də təsvir olunan σ_0 - parametri həmçinin kondensə olunmuş mühitlərdə elektron-fonon qarşılıqlı təsirini xarakterizə edir. Müəllif [23] tərəfindən qələvi elementlərin halogenidlərində sözü gedən parametrin qiymətinin σ_0=1 şərtini ödədiyi halda eksitonun sərbəst haldan özüzəbt halına (self trapped states) kəskin keçməsi haqqında irəli sürülən mühakimə digər tədqiqatlarda [24] öz təsdiqini tapır. Elektron-fonon qarşılıqlı təsirinin mövcudluğunu təsdiq edən [25] σ_0<1 şərtinin ödənilməsi Cədvəl 1-də təsvir olunan bütün XŞY-tərkiblər üçün təmin olunur. Həmçinin cədvəldən göründüyü kimi, üç-komponentli nümunələr üçün σ_0-ın qiymətinin binar $As_{40}Se_{60}$-tərkiblə müqayisədə aşağı olması müəllifin [26] çoxkomponentli xalkogenid şüşələrdə yüksək səviyyəli elektron-fonon qarşılıqlı təsirinin mövcüdluğu fikri ilə, tamamilə uzlaşır. Bundan başqa Urbax udulma kənarını xarakterizə edən parametrlər arasında korrelyasiyanın mövcudluğu da cədvəldən aydın görünür. Məlum olur ki, Urbax udulmasına səbəb olan lokal halların energetik eninin artması uyğun olaraq fononların effektiv enerjisinin artması və Urbax kənarı dikliyini xarakterizə edən σ_0 - parametrinin azalması ilə müşaiyət olunur. Sözü gedən parametrlərin belə dəyişməsi elektron-fonon qarşılıqlı təsirinin və atomların məskunlaşmasında aşkara çıxan quruluş nizamsızlığının səviyyəsi ilə əlaqədardır.

İşığın Raman səpilmə spektrinin yuxarıda ifadə olunan şərhi göstərir ki, $As_{40}Se_{60}$ tərkibinin məxsusu şüşəvari matrisanın quruluş elementlərindən və yaxud As-Se atomları arasındakı heteropolyar rabitələrdən və az miqdarda selen, arsen atomları arasındakı homopolyar rabitələrdən yaranır. Selen atomlarının müəyyən hissəsinin kükürdlə ($As_{40}Se_{30}S_{30}$ və $As_{33,3}Se_{33,3}S_{33,4}$ tərkiblərində) əvəz olunması nəticəsində rabitələrin müəyyən hissəsi yüksək enerjili As-S (45.18kcal/mol), Se-S (47,47kcal/mol), S-S (50,9kcal/mol) rabitələri ilə əvəz olunan quruluş elementlərinə məxsus olan yeni xarakterik maksimumlar və səpilmə zolaqları yaranır. Selen atomlarının müəyyən hissəsinin tellurla ($As_{40}Se_{30}Te_{30}$ və $As_{33,3}Se_{33,3}Te_{33,4}$ tərkibləri) əvəz olunması zamanı isə selen atomlarının iştirak etdiyi quruluş elementlərinə məxsus olan rabitələrin rəqsi ilə əlaqəli olan səpilmə zolaqları zəifləyir və tərkibində daha aşağı rabitə enerjili As-Te (32,7kcal/mol), Se-Te (40,8kcal/mol), Te-Te (33kcal/mol) rabitələrindən ibarət olan quruluş elementlərinə məxsus səpilmə zolaqları yaranır. Buna görə də, yuxarıda sadalanan parametrlərin əhəmiyətli dərəcədə azalması müşaiyət olunur.

XÜLASƏ

$As_{40}Se_{60}$, $As_{40}Se_{30}S_{30}$, $As_{40}Se_{30}Te_{30}$, $As_{33,3}Se_{33,3}S_{33,4}$ $As_{33,3}Se_{33,3}Te_{33,4}$ tərkibli təbəqələrin amorfluğu Rentgen şüalarının difraksiya mənzərəsinin geniş zolaqlardan ibarət olması ilə sübut olunmuşdur. Amorf matrisanı əmələ gətirən əsas quruluş elementləri və kimyəvi rabitələrin növləri Raman spektroskopiyasi metodu ilə təyin olunmuşdur. Optik udulmanın Urbax kənarının temperaturdan asılılığını xarakterizə edən parametrlərin qiymətləri və kimyəvi tərkibdən asılı olaraq dəyişməsi elektron-fonon qarşılıqlı təsiri ilə əlaqələndirilmişdir. Kimyəvi yaxınlaşma metodundan və Raman səpilmə spektrindən istifadə edərək tədqiq olunan materiallar üçün elektron-fonon qarşılıqlı təsirinin enerjisi hesablanmışdır. Göstərilmişdir ki, üçqat tərkibli xalkogenidlərdə elektron-fonon qarşılıqlı təsiri daha güclüdür.

1. E.I.Kamitsos, J.A.Kapoutsis, I.P.Culeac, M.S.Iovu. *Structure and bonding in As-S-Sb chalcogenide glasses by infrared reflectance spectroscopy, J. Phys. Chem*, **B101**(1997) 11061-11067.
2. M.S.Iovu, E.I.Kamitsos, C.P.E.Varsamis, P.Boolchand, M.Popescu. *Raman spectra of AsxSe100-x glasses doped with metals, Journal of Optoelectronics and Advanced Materials* **7** (2005) 1217-1222.
3. F.Y.Lin, O.Gulbiten, Z.Y.Yang, L.Calvez, P.Lucas. *Mechanism of photostructural changes in mixed-chalcogen As-S-Se glasses investigated by Raman spectroscopy, Journal of Physics D, Applied Physics,* **44** (2011)045404.
4. J.Kalužný, D.Ležal, E.Mariani, J.Pedlíková, V.Labaš, НАЗВАНИЕ, 12th International scientific conference „CO-MAT-TECH 2004“, MtF STU Trnava, Trnava (2004) 553-560. ISBN: 80-227-2121-2.
5. R.I.Alekberov, S.I.Mekhtiyeva, A.I.Isayev, M.Fabian. *The local structure of As-Se-S chalcogenide glasses studied by neutron diffraction and Raman scattering, J. Non-Cryst. Sol*, **470** №15 (2017)152-159.
6. Р.И.Алекберов, С.И.Мехтиева, Г.А.Исаева, А.И.Исаев. *Комбинационное рассеяние света в халькогенидных стеклообразных полупроводниках As-Se-S и As-Se-Te, ФТП,* **48** (2014) 823-826.
7. G.Lucovsky, R.M.Martin. *A molecular model for the vibrational modes in chalcogenide glasses, J. Non-Cryst. Solids,* 8-10 (1972) 185–190.
8. G. Delaizir, M.Dussauze, V.Nazabal et all. *Structural characterizations of As-Se-Te glasses, Journal of Alloys and Compounds,* **509** (2011) 831-833.
9. T.Cardinal, K.A.Richardson, H. Shim, et *all. Nonlinear optical properties of chalcogenide glasses in the system As-S-Se, J. Non-Cryst. Solids,* **256–257** (1999) 353-360.
10. C.Lopez, K.A.Richardson, R.Valee. *Photo-induced changes in arsenic based chalcogenides, Conference Paper: CLEO'04/San Francisco,* (2004) 504-507.
11. F.Wenger, A.V.Melnichuk, A.V.Stronsky. *Photostimulated Processes in Chalcogenide Glassy Semiconductors and Their Practical Application Academperiodika* E, Kiev, (2007) 283.
12. A.Mendoza-Galvan, E.Garcia-Garcia, Y.V.Vorobiev, J.Gonzalez-Hernandez. *Structural, optical and electrical characterization of amorphous Se_xTe_{1-x} thin film alloys,* Microelectron. Engin, **51-52** (2000)677-687.
13. M.H.Brodsky, R.J.Gambino, J.E.Smith, Y.Yacoby. *The Raman Spectrum of Amorphous Tellurium, Phys. Status Solidi B,* **52** (1972) 609-614.
14. T.Usuki, K.Saitoh, M.Endo, O.Uemura. *Short-range order of amorphous and liquid As-Te-I system, J. Non-Cryst. Sol*, **205-207** (1996) 184-188.
15. W.Li, S.Seal, C.Rivero, C.Lopez, K.Richardson, A.Pope, A.Schulte, S.Myneni, H.Jain, K.Antoine, A.C.Miller. *Role of S/Se/S/Se ratio in chemical bonding of As-S-Se glasses investigated by Raman, x-ray photoelectron, and extended x-ray absorption fine structure spectroscopies, J. Appl. Phys*, **98** (2005) 053503.
16. О.В.Химинец, В.С.Герасименко и др. *ЖПХ,* **51** (1978) 1522.
17. H.Y.Fan, *Temperature Dependence of the Energy Gap in Semiconductors Phys. Rev*, **82** (1951) 900-906.
18. Под ред. К.Д.Цендина. *Электронные явления в халькогенидных стеклообразных полупроводниках, изд. Наука,* (1996) 486.
19. B.G.Ëurbulak, S.Duman, A.Ates. *The Urbach tails and optical absorption in layered semiconductor $TlGaSe_2$ and $TlGaS_2$ single crystals, Czech. J. of Physics*, **55** (2005) 93-103.
20. Y.Utsugi, Y.Mizushima. *Photostructural change in the Urbach tail in chalcogenide glasses, J. Appl. Phys,* **51** (1980)1772-1779.
21. G.-H.Jung, H.Kong, J.-B.Yeo, H.-Y.Lee. *Evaluations of $Sb_{20}Se_{80-x}Ge_x$ (x=10, 15, 20, and 25) Glass Stability from Thermal, Structural and Optical Properties for IR Lens Application J. Korean Ceram. Soc*, **54** (2017)484-491.
22. I.P.Studenyak, M.Kranjčec**,** et all. *Compositional studies of optical parameters in $(Ag_3AsS_3)_x(As_2S_3)_{1-x}$ (x=0.3; 0.6; 0.9) thin films, Semiconductor Physics, Quantum Electronics & Optoelectronics,* **19** (2016) 371-376.
23. Y.Toyozawa, *Technical Report of the Institute for Solid State Physic*, Ser. A, **119** (1964).
24. I.H.Kanzaki, S.Sakuragi, K.Sakamoto. *Excitons in $AgBr_{1-\alpha}Cl_\alpha$ - transition of relaxed state between free and self-traffed exciton, Solid State Commun,* **9** (1971) 999-1002.
25. M.V.Kurik. *Urbach rule (Review), Phys. Status Solidi (a),* **8**(1971) 9-30.
26. H.Kong, J-B.Yeo, H-Y.Lee. *Evaluations of $Sb_{20}Se_{80-x}Ge_x$ (x=10, 15, 20, and 25) Glass Stability from Thermal, Structural and Optical Properties for IR Lens Application, J. Korean Ceramic Society*, **5** (2017) 484-491.

THE OPTICAL PROPERTIES AND ELECTRON-PHONON INTERACTIONS OF As-Se, As-Se-S, As-Se-Te GLASSY SYSTEMS

R.I. ALEKBEROV

$As_{40}Se_{60}$, $As_{40}Se_{30}S_{30}$, $As_{40}Se_{30}Te_{30}$, $As_{33,3}Se_{33,3}S_{33,4}$ $As_{33,3}Se_{33,3}Te_{33,4}$ chalcogenide glasses have been studied by Raman spectroscopy, X-ray diffraction method and the amorphousness and determined main structure elements of matrix forming e and types of chemical bonds has been proven. Urbach absorption edge dependence on temperature and dependence on chemical composition has been explained by interaction of the electron-phonon depending on the chemical composition.

ОПТИЧЕСКИЕ СВОЙСТВА И ЭЛЕКТРОННО-ФОНОННОЕ ВЗАИМОДЕЙСТВИЕ В СТЕКЛООБРАЗНЫХ СИСТЕМАХ As-Se, As-Se-S, As-Se-Te

Р.И. АЛЕКБЕРОВ

Исследованы халькогенидные стекла $As_{40}Se_{60}$, $As_{40}Se_{30}S_{30}$, $As_{40}Se_{30}Te_{30}$, $As_{33,3}Se_{33,3}S_{33,4}$ $As_{33,3}Se_{33,3}Te_{33,4}$ методами спектроскопии комбинационного рассеяния света, рентгеновской дифракции, доказана аморфность образцов и определены основные элементы структуры, образующие матрицу, а также химических связей. Зависимость края поглощения Урбаха от температуры и от химического состава объясняется изменением электрон-фононного взаимодействия в зависимости от химического состава.

UOT 535.343.2

YARIMKEÇİRİCİ İFRATQƏFƏSLƏRDƏ MÜXTƏLİF SƏPİLMƏ MEXANİZMLƏRİ İLƏ İŞIĞIN ALTZONADAXİLİ UDULMASI

R.Z.İBAYEVA

Azərbaycan MEA-nın Fizika İnstitutu
AZ 1143, Bakı, H.Cavid pr., 131
raida_ibayeva@hotmail.com

Daxil olub: 21.05.2019
Çapa verilib: 01.09.2019

Açar sözlər: Yarımkeçirici ifratqəfəslər, akustik və optik fononlar, altzonadaxili udulma

REFERAT
Ikinci tərtib həyəcanlaşma nəzəriyyəsi əsasında maqnit sahəsində yarımkeçirici ifratqəfəslərdə yükdaşıyıcılar akustik və optik fononlardan səpildikdə işığın altzonadaxili udulması tədqiq edilmişdir. Yükdaşıyıcıların baxılan səpilmə mexanizmləri üçün udulma əmsalı hesablanmışdır.

Optoelektronikanın son nəaliyyətləri nanoölçülü strukturların və periodik strukturlu yarımkeçirici ifratqəfəslərin optik xassələrini tədqiq etməyi aktual edir. Belə elektron sistemlər heterostrukturlar əsasında yaradılır və mikro və nanoelektronikada geniş istifadə olunur. Yarımkeçirici ifratqəfəslər elə strukturlardır ki, onlarda elektronlara kristal qəfəsin periodik potensialı ilə yanaşı, kristal qəfəsin periodundan dəfələrlə böyük perioda malik süni yaradılmış potensial da təsir edir. Süni yaradılmış potensial elektronun enerji spektrinə təsir edərək onu minizonalara parçalayır. Həcmi kristallardan fərqli olaraq yarımkeçirici ifratqəfəslərin parametrlərini onun yaranma prosesində idarə etmək olar. Bu isə onlar əsasında yaranmış cihazların üstünlüyüdür. Maqnit sahəsi onda yerləşən yarımkeçirici ifratqəfəsin enerji spektrini dəyişərək onu idarə etməyə imkan verir.

Uzun müddətdir ki, müxtəlif naanostrukturlarda elektron fonon qarşılıqlı təsir nəzərə almaqla zonadaxili udulma tədqiq edilir. Bu işdə maqnit sahəsində yarımkeçirici ifratqəfəslərdə elektron-fonon qarşılıqlı təsirı nəzərə almaqla zonadaxili optik keçid tədqiq olunmuşdur.

Məlumdur ki, birminizonalı yaxınlaşmada yarımkeçirici ifratqəfəslərdə enerji spektri aşağıdakı kimidir [1]

$$\varepsilon\left(\vec{P}\right)=\frac{P_x^2+P_y^2}{2m^*}+\Delta\left(1-\cos\left(P_z d_{SL}/\hbar\right)\right), \tag{1}$$

burada m^* - elektronun effektiv kütləsi, Δ - minizonanın yarımeni, d_{SL} - ifratqəfəsin enidir. Yarımkeçırici ifratqəfəs Oz oxy üzrə periodikdir, $\vec{P}_x, \vec{P}_y, \vec{P}_z$ uyğun olaraq X,Y,Z oxları üzrə elektronun kvaziimpulsunun komponentləridir. Maqnit sahəsini ifratqəfəs oxu , yəni Oz oxy istiqamətində yönəltsək, onda Landau kalibrəsinə görə vektor potensial belə seçilə bilər $(A=-Hy,0,0)$. Onda elektronun halını təsvir edən stasionar Şredinger tənliyi aşağıdakı kimi olar.

$$\frac{1}{2m^*}\left[\left(P_x+\frac{e}{c}Hy\right)^2+P_y^2+P_z^2\right]\Psi\left(r\right)+U\left(z\right)\Psi\left(r\right)=E\Psi\left(r\right), \tag{2}$$

burada e -elektronun yükü, $U(z)$- d_{SL} periodlu potensial çuxur olub maqnit sahəsi istiqamətində yönəlibdir. Kvant mexanikasından məlumdur ki, (2) tənliyinin həlli $\Psi(r)=\frac{1}{\sqrt{L_y}}\exp\left(\frac{i}{\hbar}P_x x\right)\phi(y)\xi_{k_z}(z)$ şəklində axtarılır. $\Psi(r)$-in bu ifadəsini (2)-də nəzərə alsaq, aşağıdakı tənlik alınar

$$\frac{\hbar^2}{2m^*}\phi''(y)+\left(E-\Delta\left(1-\cos\left(\frac{p_z d}{\hbar}\right)\right)-\frac{m^*\omega_c^2}{2}(y-y_0)^2\right)\phi(y)=0\,, \tag{3}$$

burada $\omega_c=\frac{eH}{m^*c}$, $y_0=\frac{cP_x}{eH}$. (3) tənliyi həlli yaxşı məlum olan xətti harmonik ossilyatorun tənliyidir [2] və elektronun məxsusi enerjisi və məxsusi funksiyası aşağıdakı şəkildə ifadə olunur

$$E_n(k_z)=\hbar\omega_c\left(n+\frac{1}{2}\right)+\Delta\left(1-\cos\left(\frac{P_z d}{\hbar}\right)\right), \tag{4}$$

$$\phi_{nk_x}(y)=\left(\frac{1}{2^n n!\sqrt{\pi}R}\right)^{1/2}\exp\left[-\frac{(y-y_0)^2}{2R^2}\right]H_n\left(\frac{y-y_0}{R}\right), \tag{5}$$

burada H_n - Ermit polinomu, $R=\sqrt{\hbar/m^*\omega_c}$ - maqnit uzunluğudur.

Beləliklə, uzununa maqnit sahəsinin ($H=H_z$) təsiri altında z oxu boyunca d_{SL} periodlu, $U(z)$ potensial çuxurlu ifratqəfəslərdə elektronun enerji spektri və dalğa funksiyası aşağıdakı kimi ifadə oluna bilir

$$E_n(k_z)=(n+1/2)\hbar\omega_c+\Delta(1-\cos k_z d_{SL})\,, \tag{6}$$

$$\Psi_{nk_xk_z}=\frac{1}{\sqrt{L_y}}\exp(ik_x x)\phi_{nk_x}(y)\xi_{k_z}(z)\,, \tag{7}$$

burada $P=\hbar k$ olduğu nəzərə alınmışdır. L_x, L_y və L_z ifratqəfəs nümunəsinin ölçüləridir və $\xi_{k_z}(z)$ - z istiqamətində Blox funksiyasını göstərir.

Maqnit sahəsi ifratqəfəsin səthinə perpendikulyar yönəldikdə Landau kvantlanması baş verir və enerji diskret səviyyələrə ayrılır. Eyni zamanda z istiqamətində elektronlar və deşiklərin hərəkətinin nəticəsi olan minizonalar kəsilməz olaraq qalırlar.

Maqnit sahəsində yüksək tezlikli sahə ilə qarşılıqlı təsiri təsvir edən H_R Hamiltonunu aşağıdakı formada yazımaq olar

$$H_R=\frac{e}{m^*}\sqrt{\frac{2\pi\hbar n_0}{\in(\omega)\omega}}\vec{\varepsilon}\left(p+\frac{e}{c}A\right)\,, \tag{8}$$

burada $\vec{\varepsilon}$ şüalanma sahəsinin polyarizasiya vektoru, $\in$ - dielektrik sabiti, ω və c işıq dalğasının tezliyi və sürətidir. H_R operatorunun matris elementlərini hesabladıqda yüksək tezlikli sahə bircins hesab olunur. H_R matris elementi kvadratının ifadəsini aşağədakı kimi olar

$$\left|\left\langle nk_x k_z \left| H_R \right| n'k'_x k'_z \right\rangle\right|^2 = \left(\frac{2\pi\hbar n_0}{\in(\omega)\omega}\right)\left(e\Delta d_{SL}\sin\left(k_z d_{SL}\right)/2\hbar\right)^2 \delta_{nn'}\delta_{k_x k'_x}\delta_{k_z k'_z} \ . \qquad (9)$$

Hesab etsək ki, elektron fonon və elekton foton qarşılıqlı təsiri çox kiçikdir və $\omega\tau \succ\succ 1$ (τ-elektronun orta yaşama müddətidir) olduğundan, həyəcanlaşma nəzəriyyəsindən istifadə edirik. İşığın baxılan polyarizasiyasında birinci tərtib həyacanlaşma nəzəriyyəsi ilə işığın udulması baş verdiyindən ikinci tırtib həyacanlaşma nəzəriyyəsindən istifadə edəcəyik.

Kvant mexaniki keçid ehtimalı ilə əlaqədar olaraq yükdaşıyıcıların fononlardan səpilməsi ilə eyni zamanda yükdaşıyıcılar ya foton udur ya da özündən foton buraxır, bu zaman sərbəst yükdaşıyıcılarla işığın udulma əmsalı belə hesablanır

$$\alpha = \frac{\in^{1/2}}{n_0 c}\sum_i W_i f_i \ , \qquad (10)$$

burada n_0 - şüalanma sahəsində fotonların sayı, f_i sərbəst yükdaşıyıcıların paylanma funksiyası, W_i - aşağıdakı ifadə ilə müəyyən olunan keçid ehtimalıdır

$$W_i = \frac{2\pi}{\hbar}\sum_{fq}\left[\left|\langle f|M_+|i\rangle\right|^2\delta\left(E_f - E_i - \hbar\omega - \hbar\omega_q\right) + \left|\langle f|M_-|i\rangle\right|^2\delta\left(E_f - E_i - \hbar\omega + \hbar\omega_q\right)\right], \qquad (11)$$

burada E_i və E_f - uyğun olaraq başlanğıc və son halda elektronların enerjisinin göstərir, $\hbar\omega_q$ - fononun enerjisidir və $\langle f|M_+|i\rangle$ - elektron, fonon və fotonlar arasındakı qarşılıqlı təsir üçün başlanğıc vəziyyətdən son vəziyyətə keçidin matris elementləridir. Bu matris elementləri aşağıdakı kimi ifadə oluna bilər

$$\langle f|M_\pm|i\rangle = \sum_\alpha\left(\frac{\langle f|H_R|\alpha\rangle\langle\alpha|V_s|i\rangle}{E_i - E_\alpha \mp \hbar\omega_q} + \frac{\langle f|V_s|\alpha\rangle\langle\alpha|H_R|i\rangle}{E_i - E_\alpha - \hbar\omega}\right), \qquad (12)$$

burada *i,α,f* indeksləri elektronun başlanğıc, aralıq və son vəziyyətini göstərir. V_S - elektron-fonon qarşılıqlı təsir operatorudur.

Elektron-fonon qarşılıqlı təsirinin matrisa elementi aşağıdakı kimidir

$$\left\langle k'_y\ n'l|V_s|k_y nl\right\rangle = C'_j\delta_{k_x k'_x+q_x}\delta_{k_z,k'_z+q_z}J_{nn'}\left(q_x q_y\right), \qquad (13)$$

burada

$$J_{n',n}\left(q_x q_y\right) = \int_{-\infty}^{\infty} dx\exp\left(iq_y x\right)\Phi_{n'}\left(y - R^2k_x - R^2q_x\right)\Phi_n\left(y - R^2k_x\right), \qquad (14)$$

$$C_j'^2 = C_j^2 F_j(q),$$

V_S - elektronun fononla qarşılıqlı təsirinin enerji operatorudur. C_j - elektronlar və fononlar arasındakı qarşılıqlı təsiri xarakterizə edən funksiyadır.

Elektronlar akustik fononlarla qarşılıqlı təsirdə olduqda

$$C_{DP}^2 = \frac{E_{ac}^2 K_B T}{2\rho\upsilon_s^2\Omega_0}, \qquad F_{DP}(q) = 1,$$

burada E_{ac}-deformasiya potensialı sabiti, υ_s - yarımkeçirici səsin sürətidir.

Ədəbiyyatdan məlumdur ki, C_j' verilmiş qarşılıqlı təsir potensialının q_z-dən asılılığını nəzərə almaya bilirik.

Elektronların polyar-optik fononlarla qarşılıqlı təsiri üçün

$$C_{POL}^2 = 2\pi e^2 \hbar\omega_0 \left\{\frac{1}{\varepsilon_\infty} - \frac{1}{\varepsilon_0}\right\}, \quad F_{POL} = \frac{N_0^{\pm}}{q^2},$$

$$N_0 = \left[\exp\left(\frac{\hbar\omega_0}{K_B T}\right) - 1\right]^{-1}, \qquad N_0^- = N_0,\ N_0^+ = N_0 + 1,$$

burada ε_∞ və ε_0 – yarımkeçiricinin uyğun olaraq yüksəktezlikli və statik dielektrik sabitidir. Fononun enerjisi $\hbar\omega_q = \hbar\omega_0 \approx$ const götürülüb,

$$N_0 = \left[\exp\left(\frac{\hbar\omega_0}{K_B T}\right) - 1\right]^{-1}, \qquad N_0^- = N_0,\ N_0^+ = N_0 + 1,$$

burada $N_0^-\left(N_0^+\right)$ fononun məhv olmasını (yaranmasını) ifadə edir.

Elektronların qeyri polyar-optik fononlarla qarşılıqlı təsiri üçün

$$C_{np}^2 = \frac{\hbar D^2}{2\rho\omega_0 V}, \qquad F_{np}(q) = N_0^{\pm},$$

burada D – qeyri-polyar optik deformasiya potensialı sabitidir.
(9) və (13) ifadələrini (12)-də nəzərə alsaq elektron, fonon və fotonlar arasındakı qarşılıqlı təsir üçün başlanğıc vəziyyətdən son vəziyyətə keçidin matris elementi üçün alarıq

$$\left\langle f\left|M_{\pm}\right|i\right\rangle = C_j'\left(\frac{2\pi\hbar n_0}{\in(\omega)\omega}\right)^{1/2}\left(e\Delta d_{SL}/2\hbar\right)\frac{\left(\sin k_z - \sin(k_z + q_z)\right)J_{nn'}\left(q_x q_y\right)}{\hbar\omega}. \qquad (15)$$

Yarımkeçirici ifratqəfəslərdə elektronların sayını N_e hesab etsək paylanma funksiyası aşağıdakı şərtdən hesablanır

$$\sum_{nk_xk_z} f_0\left(E_{nk_xk_z}\right) = N_e, \qquad (16)$$

$f_0\left(E_{nk_xk_z}\right)$-ə daxil olan normallaşdırıcı sabiti tapaq

$$\sum_{nk_xk_z} f_0\left(E_{nk_xk_z}\right) = \sum_{nk_xk_z} C\exp\left(-\frac{E_{nk_xk_z}}{k_B T}\right) = C\exp\left(-\frac{\Delta}{k_{\mathbf{B}} T}\right)\exp\left(-\frac{\hbar\omega_c}{2k_B T}\right)\frac{L_x L_z}{4\pi^2}\int\limits_{\frac{-m^*\omega_c Ly}{2\hbar}}^{\frac{m^*\omega_c Ly}{2\hbar}} dk_x$$

$$\sum_n \exp\left(-\frac{\hbar\omega_c n}{k_B T}\right)\int_{-\pi/d_{SL}}^{\pi/d_{SL}} \exp\left(\frac{\Delta\cos k_z d_{SL}}{k_B T}\right)dk_z = \frac{CL_x L_y L_z \exp\left(-\frac{\Delta}{k_B T}\right)m^* \omega_c}{4\pi^2 d_{SL}\hbar \sinh\left(\frac{\hbar\omega_c}{2k_B T}\right)} I_0\left(\frac{\Delta}{k_B T}\right) = N_e, \quad (17)$$

buradan

$$C = \frac{4\pi n_e d_{SL}\hbar \sinh\left(\frac{\hbar\omega_c}{2k_B T}\right)}{m^*\omega_c I_0\left(\frac{\Delta}{k_B T}\right)}, \quad (18)$$

burada $n_e=N_e/V$ –elektronun sıxlığını göstərir və $I_0(\Delta/k_BT)$ – modifikasiya olmuş Bessel funksiyasıdır, (5) ifadəsini alarkən

$$\sum_{n=0}^{\infty} \exp\left(-\frac{\left(n+\frac{1}{2}\right)}{k_B T}\hbar\omega_c\right) = \frac{1}{2\sinh\left(\frac{\hbar\omega_c}{2k_B T}\right)}$$

və

$$\int_0^{\pi} \exp\left(\frac{\Delta}{k_B T}\cos y\right)dy = I_0\left(\frac{\Delta}{k_B T}\right)$$

olduğu nəzərə alınmışdır.

Beləliklə, maqnit sahəsində cırlaşmamış yarımkeçirici ifratqəfəs üçün $f_0(E_n(k_z))$ elektronun paylanma funksiyasının ifadəsi belə ifadə olunur

$$f_0\left(E_n\left(k_z\right)\right) = \frac{4\pi\hbar n_e d_{SL}\sinh\left(\hbar\omega_c/k_B T\right)}{m^*\omega_c I_0\left(\Delta/k_B T\right)} e^{-\left(n+\frac{1}{2}\right)\frac{\hbar\omega_c}{k_B T}} e^{\frac{\Delta}{k_B T}\cos k_z d_{sl}}. \quad (19)$$

(11), (15) və (19) ifadələrini (10)-da nəzərə alsaq, maqnit sahəsində yarımkeçirici ifratqəfəslərdə elektron-fonon qarşılıqlı təsirı nəzərə almaqla zonadaxili optik udulma əmsalı üçün ifadələr alarıq.

1. А.П.Силин. *Полупроводниковые сверхрешетки, УФН,* **147** №3 **(**1985) 485-520.
2. Л.Д.Ландау, Е.М.Лифшиц. *Квантовая механика, М. Наука,* (1974) 752.
3. H.Adamska, N.Spector. *Free-carrier absorption from electrons in confined systems, J.Appl. Phys.,* **59** (1986) 619-626.
4. S.S.Kubakaddi, B.G.Mulimani. *Free-carrier absorption in semiconducting quantum well wires, J.Phys.C State Phys.,* **18** (1985) 6647-6652.
5. G.BIbragimov. *Intersubband optical absorption in parabolic quantum wires under a tilted magnetic fields, Phys.stat.sol.(b),* **241** (2004) 1923-1927.
6. K.S.Bhargavi, Sukanya Patil, S.S.Kubakaddi. *Acoustic phonon assisted free-carrier optical absorption in an n-type monolayer MoS2 and other transition-metal dichalcogenides Journal of Applied Physics,* **118** (2015) 044308.
7. G.B.İbragimov, R.G.Abaszade, R.Z.İbayeva. *Theory of free-carrier absorption in cylindrical quantum wires International Journal of Latest Research in Science and Technology*, **3** (2014) 78-80.

INTRASUBBAND LIGHT ABSORPTION IN SEMICONDUCTOR SUPERLATTICES WITH DIFFERENT SCATTERING MECHANISMS

R.Z.IBAEVA

Within the framework of the second-order perturbation theory the intrasubband magnetoabsorption of light in semiconductor superlattices has been studied taking into account the scattering of charge carriers by acoustic and optical phonons. An analytical expression for the absorption coefficient for these scattering mechanisms has been calculated.

ВНУТРИПОДЗОННОЕ ПОГЛОЩЕНИЕ СВЕТА В ПОЛУПРОВОДНИКОВЫХ СВЕРХРЕШЕТКАХ ПРИ РАЗЛИЧНЫХ МЕХАНИЗМАХ РАССЕЯНИЯ

Р.З. ИБАЕВА

В рамках теории возмущения второго порядка изучено внутриподзонное магнетопоглощение света в полупроводниковых сверхрешетках с учетом рассеяния носителей заряда на акустических и оптических фононах. Вычислено аналитическое выражение коэффициента поглощения для указанных механизмов рассеяния.

UOT 548.736.3

$Rb_{0,90}Cs_{0,10}NO_3$ MONOKRİSTALINDA IV→III POLİMORF ÇEVRİLMƏNİN KİNETİKASI

A.F.HƏZİYEVA

Azərbaycan MEA Fizika İnstitutu
AZ 1143, Bakı, H.Cavid prospekti, 131
aygun-kazimova-1981@mail.ru

Daxil olub: 12.06.2019
Çapa verilib: 01.09.2019

Açar sözlər: Polimorfizm, modifikasiya, polimorf çevrilmə, enantiotrop.

REFERAT

Optik mikroskopiya üsulu ilə $Rb_{0.90}Cs_{0.10}NO_3$ monokristallarında IV→III polimorf çevrilmənin kinetikası tədqiq olunaraq III- modifikasiya kristalının böyümə sürətinin temperaturdan $\upsilon=(-0,437\Delta T+0,484\Delta T^2-0,0014\Delta T^3)\cdot 10^{-2}$sm/san funksional asılılığı müəyyən olunmuşdur. Alınan nəticələr əsasında IV→III çevrilmənin aktivləşmə enerjisi hesablanaraq E=84.8kC/mol alınmışdır.

Məlumdur ki, otaq temperaturundan ərimə temperaturuna kimi ($T_{ər}$=587K) rubidium nitratda dörd polimorf modifikasiya mövcuddur. Otaq temperaturunda IV-modifikasiya kristalı P31 simmetriyalı romboedrik qəfəsə malik olub, qəfəs parametrləri a=10.48 Å, c=7.45Å [1]-dir. T>437K temperaturda romboedrik IV-modifikasiya $Fm\bar{3}m$ simmetriyalı, a=4.35Å parametrli kubik modifikasiyaya [2], T>492K temperaturda həmin kubik modifikasiya $Pm\bar{3}m$ simmetriyalı a=5.48Å, c=10.71Å parametrli romboedrik modifikasiyaya [3] və nəhayət T>546K temperaturda bu romboedrik modifikasiya da öz növbəsində $Fm\bar{3}m$ simmetriyalı və a=7.32Å parametrli kubik modifikasiyaya çevrilir [4]. Rubidium nitratda baş verən bu çevrilmələr enantiotropdur. Başqa sözlə desək, nümunə soyudularkən həmin ardıcıllıqla əks çevrilmələr baş verir.

Sezium nitratda isə otaq temperaturundan ərimə temperaturuna kimi ($T_{ər}$=687K) iki polimorf modifikasiya mövcuddur. Otaq temperaturunda o, P3/m (II modifikasiya) simmetriyalı, a=10.87Å, b=7.76Å parametrli rombik psevdotriqonal qəfəsdə kristallaşır [5]. T>434K temperaturda bu qəfəs Pa3 simmetriyalı, a=8.98Å parametrli kub qəfəsə (I modifikasiya) çevrilir [6]. Bu maddədə də baş verən polimorf çevrilmə enantiotropdur.

[7,8]-də rubidium və sezium nitrat kristallarında polimorf çevrilmələr zamanı kristal böyümələrinin morfologiyası tədqiq olunmuş, təcrübələr nəticəsində həmin kristallarda yeni x-modifikaşıyanın mövcudluğu müəyyən edilmişdir. Eyni zamanda rubidium və sezium nitrat kristallarında polimorf çevrilmələrin mexanizminin ümumi qanunauyğunluqlara malik olduğu müəyyən olunmuşdur.

[9]-a görə kifayət qədər yüksək təzyiqlərdə rubidium nitratın yüksək temperaturlu II və I modifikasiyaları sıradan çıxır və yüksək temperatur modifikasiyası kimi kristalda III modifikasiya qalır. [10]-a görə isə sezium nitratın rubidium nitratdakı bərk məhlulunda sezium duzlarının ~25mol% konsentrasiyasında da I və II modifikasiyalar aradan çıxır.

Molekulyar-dinamik modelləşdirmə ilə rubidium və sezium nitrat kristallarında quruluş faza çevrilmələri tədqiq olunmuş [11], $RbNO_3$-$CsNO_3$ sisteminin faza diaqramı qurulmuş [12], habelə rubidium nitratda IV↔III↔II↔I polimorf çevrilmələri zamanı qarşılıqlı çevrilən modifikasiyalar arasında kristalloqrafik istiqamət əlaqələri araşdırılmışdır [13].

Təqdim olunan bu iş sezium nitratın rubidium nitratda bərk məhlullarında polimorf çevrilmələrin mexanizminin tədqiqinə həsr olunmuş tədqiqat işlərinin davamı olub [14-15], işdə $Rb_{0.90}Cs_{0.10}NO_3$ monokristallarında IV→III polimorf çevrilmənin kinetikasının tədqiqinin nəticələri verilmişdir.

Təcrübələr [16]-da verilən metodika üzrə aparılmış, IV→III çevrilməsi zamanı III-modifikasiya kristalın böyümə sürəti temperaturdan asılı

olaraq böyüyən kristalın eyni (hkl) üzündə ölçülmüşdür. Təcrübələr zamanı ölçüləri 1x0.5x15mm olan nümunələrdən istifadə olunmuş (Şəkil 1), ölçmələr müxtəlif temperaturlarda kristalın seçilmiş müxtəlif hissələrində aparılmışdır. Kristal istilik izolyatoru vasitəsilə örtülərək ölçmələr zamanı temperatur sabit saxlanılmışdır. Nümunənin temperatur lehimi kristal səthinə toxunan termocüt vasitəsilə ölçülmüşdür. Temperatur ölçmələrinin xətası 100K-də ~0.5K olmuşdur.

Şəkil 1

$Rb_{1-x}Cs_xNO_3$(x=0,025 ;0,05; 0,1) bərk məhlul monokristalları.

Təcrübə zamanı okulyar toru vasitəsilə kristalda 1 mm uzunluqlu hissə ayrılaraq və temperatur $T_1=T_0+\Delta T_1$-ə qaldırılmışdır. Burada T_0 - III və IV modifikasiya kristalları arasında tarazlıq temperaturu, ΔT_1 isə temperatur yubanmasıdır. $Rb_{0,90}Cs_{0,10}NO_3$ kristallar üçün III və IV modifikasiyalar arasında tarazlıq temperaturu $T_0=393\pm1$K-dir. Kristalda IV→III çevrilməsinə sürəti ölçüldükdən sonra temperaturu $T_2=T_0+\Delta T_2$-yə qaldırılmışdır, haradakı $\Delta T_2>\Delta T_1$-dir. Yenidən IV→III çevrilmənin sürəti ölçülmüş və bu qaydada proses davam etdirilmişdir. Beləliklə, ardıcıl olaraq kristalın eyni üzünün böyümə sürətini temperaturdan asılı olaraq ölçülmüşdür. Dörd kristalda aparılmış ölçmələrin nəticələri ən kiçik kvadratlar metodu ilə işlənərək IV→III polimorf çevrilməsi zamanı III-modifikasiya kristalının böyümə sürətinin temperaturdan

$\upsilon_{IV\to III}=(-0,437\Delta T+0,484\Delta T^2-0,0014\Delta T^3)\cdot10^{-2}$sm/san

funksional asılılığı müəyyən edilmişdir. Burada, irəlidə qeyd etdiyimiz kimi $\Delta T=T_{çev}-T_0$-dir. $T_{çev}$ - polimorf çevrilmə temperaturu, T_0- tarazlıq temperaturudur.

Təcrübi nəticələr Cədvəl 1-də verilmişdir.

Cədvəl 1

$Rb_{0,90}Cs_{0,10}NO_3$ kristallarında IV→III çevrilməsi zamanı III-modifikasiya kristalının böyümə sürətinin temperatur asılılığı üçün alınan təcrübi nəticələr.

ΔT, K	$\frac{1}{T_0\Delta T}\cdot10^{-4}K^{-2}$	$\overline{\upsilon}_{təc}$x10^{-2} sm/san	$\overline{\upsilon}_{emp}$ x10^{-2} sm/san	lnυ
3	8.48	3.23	3.007	-3.5
4	6.36	5.28	5.9	-2.82
5	5.08	9.37	8.77	-2.43
6	4.24	14.68	14.49	-1.93
7	3.63	20.81	20.17	-1.60
8	3.18	24.97	26.76	-1.31
9	2.82	33.89	34.25	-1.07
10	2.54	43.46	42.63	-0.85

Şəkil 2-də isə III-modifikasiya kristalının böyümə sürətinin temperatur asılılığı üçün təcrübədən və empirik düsturdan alınan nəticələrin qrafiki verilmişdir.



Şəkil 2

$Rb_{0.90}Cs_{0.10}NO_3$ kristallarında IV→III polimorf çevrilmə zamanı III-modifikasiya kristalının böyümə sürətinin temperaturdan asılılığı:●-təcrübi nəticələr, Δ-empirik düsturdan alınan nəticələr.

Qrafikdən görünür empirik düsturdan və təcrübədən alınan nəticələr bir-biri ilə kifayət qədər yaxşı uzlaşır.

Cədvəl 1-dən görünür ki, ΔT artdıqca $Rb_{0,90}Cs_{0,10}NO_3$ kristallarında IV→III polimorf çevrilmənin sürəti də böyüyür. Eyni zamanda tədqiq olunan bərk məhlulda bu sürət təmiz rubidium nitratdakından böyükdür. Belə ki, $RbNO_3$-də ΔT=8K-də $\upsilon=5.215\frac{sm}{san}$ olduğu halda [8]

$Rb_{0,90}Cs_{0,10}NO_3$-də bu sürət $\upsilon = 24.97\frac{sm}{san}$, yəni ~5 dəfə böyük olmuşdur. Buradan belə nəticəyə gəlmək olar ki, $RbNO_3$-də Rb^{1+} ionlarının Cs^{1+} ionları ilə qismən əvəz olunması IV→III çevrilməsinin sürətinin artmasına səbəb olur.

Şəkil 3-də lnυ-nin $\frac{1}{T_0\Delta T}$-dən asılılığı verilmişdir. Qrafikdən göründüyü kimi bu asılılıq xəttidir. Yəni təcrübi nəticələr demək olar ki, bir düz xətt üzərindədir. Qrafikdən k_3=6620 dər^2 və k_2=10205 dər təyin edilərək $Rb_{0,90}Cs_{0,10}NO_3$ kristallarında IV→III polimorf çevrilmənin aktivləşmə enerjisi hesablanmış və $E = 84.8\frac{kC}{mol}$ alınmışdır.

Beləliklə, aldığımız nəticəyə əsasən *$RbNO_3$* kristallarında *Rb^+* ionlarının *Cs^+* ionları ilə qismən əvəz edilməsindən alınan *$Rb_{0,90}Cs_{0,10}NO_3$* kristallarında IV→III polimorf çevrilmənin aktivləşmə enerjisi kiçilir. Qeyd edək ki, rubidium nitratda IV→III çevrilmənin aktivləşmə enerjisi $E = 99.2\frac{kC}{mol}$-dur, bu onu göstərir ki, rubidium nitratda qismən izomorf əvəzedilmə polimorf çevrilmənin aktivləşmə enerjisinin kiçilməsinə səbəb olur.



Şəkil 3
$Rb_{0.90}Cs_{0.10}NO_3$ kristallarında IV→III çevrilməsi üçün $\ln(\upsilon)\sim f(1/T_0\Delta T)$ asılılığı.

1. R.N.Brown, A.C.McLaren. *The thermal transformations in solid thallium nitrate rubidium nitrate, Acta Cryst.,* **15** (1962) 977-979.
2. R.N.Brown, A.C.McLaren. *On the mechanism of the thermal transformation in solid rubidium and ammonium nitrate, Proc. Roy. Soc. A,* **266** (1962) 329-343.
3. U.Korhonen.*The crystal structure of cubic $RbNO_3$ Ann. Acad. Sci. Fennical A,* **1** (1951) 37-52.
4. L.Pauling, J.Sherman. *Note on the crystal structure of rubidium nitrate, Z.Krist.,* **84** (1953) 213-217.
5. G.Finbak, O.Hassel. *Kristallechimie der nitrate cinwertiger kation. III. Die nitrates, Zs. Phys. Chem.,* B**37** (1937) 75-80.
6. U.Korhonen. *Die kristall structur des caisium nitrate pberhalb 161^{0}C, Ann.Acad.Sci. Fennicae., Ser. A,* **150** (1953) 1-16.
7. Ч.М.Алекперов, В.И.Насиров, Ф.Г.Магеррамова, Ю.Г.Асадов. *Скорость роста кристаллов при полиморфных превращениях IV ↔III↔II в $RbNO_3$ и NH_4NO_3, Изв. АН Азерб.,* **5** (1989) 178-82.
8. Ч.М.Алекперов, В.И.Насиров, Ф.Г.Магеррамова, Ю.Г.Асадов. *Морфология и кинетика роста кристаллов при полиморфных превращениях в монокристаллах $RbNO_3$ и $CsNO_3$, Препринт, ИФАН Азерб.,* **4** (1996) 38.
9. B.Cleaver, O.F.Williams. *Transition rates of $RbNO_3$ high-pressure polymorphs, J. Phys. Chem. Soc.,* **29** (1968) 877-878.
10. E.S.Schlemper, W.C.Hamilton. *Phase formation in the system $RbNO_3$-$CsNO_3$, J. Phys. Chem. Sol.,* **45** (1966) 4498-4502.
11. J.Liu, C.Duan, M.Ossovski, W.Mei, R.W.Smith, J.R.Hardy. *Molecular dynamics stimulation of phase transition in $RbNO_3$ and $CsNO_3$, J. Sol. State. Chem.,* **160** (2001) 222-229.
12. E.A.Secco, R.A.Secco. *Heats of solution/substitution in $TlNO_3$ and $CsNO_3$ crystals and in $RbNO_3$ and $CsNO_3$ crystals from heats of transition: the complete phase diagrams of $TlNO_3$-$CsNO_3$ and $RbNO_3$–$CsNO_3$ systems, J. Phys and Chem. of Solids,* **63** (2002) 433-440.
13. M.Shamsuzzona, B.W.Lucas. *Polymorphs of rubidium nitrate and their crystallographic relationships, Canad. J. Chem.,* **66** (1988) 819-823.
14. А.Ф.Хазиева, Ю.Г.Асадов, В.И.Насиров. *Полиморфные превращения в монокристаллах $Rb_{0,95}Cs_{0,05}NO_3$, AMEA Məruzələr,* **65** (2009) 66-70.
15. А.Ф.Хазиева, В.И.Насиров, Ю.Г.Асадов. Полиморфные IV↔III↔II↔I превращения в

$Rb_{0,95}Cs_{0,05}NO_3$, *Transactions of National Academy of Science of Azerbaijan, series of physics-mathematical and technical sciences, Physics and Astronomy,* **XXIX** №5 (2009) 157-161.

16. Ю.Г.Асадов, В.И.Насиров. *Исследование кинетики полиморфного превращения в монокристаллах нитрата калия, Кристаллография*, **5** (1972) 991-995.
17. M.Folmer. *Kinetic der phasen, Drezden and Leipzig,* **3** (1939) 38-56 .

KINETICS OF THE POLYMORPHIC IV→III TRANSITION IN $Rb_{0,90}Cs_{0,10}NO_3$ SINGLE CRYSTALS

A.F.HAZIEVA

The growth rate of the III-modification optical microcopy has been measured as a function of the temperature during the IV→III transition in $Rb_{0,90}Cs_{0,10}NO_3$ single crystals. The growth rate of the II-modification during the IV→III transition has been described by the empirical equation: $\upsilon_{IV\rightarrow III}=(-0{,}437\Delta T+0{,}484\Delta T^2-0{,}0014\Delta T^3)\cdot 10^{-2}$cm/cek. Calculated activation energy for the IV→III transition, has been equal $E = 84.8\frac{kJ}{mol}$.

КИНЕТИКА IV→III ПОЛИМОРФНОГО ПРЕВРАЩЕНИЯ В МОНОКРИСТАЛЛАХ $Rb_{0,90}Cs_{0,10}NO_3$

А.Ф.ХАЗИЕВА

Методом оптической микроскопии измерена скорость роста кристаллов III-модификации от температуры при превращении IV→III в монокристаллах $Rb_{0,90}Cs_{0,10}NO_3$. Показано, что скорость роста III-модификации в зависимости от температуры при превращении IV→III описывается эмпирической формулой $\upsilon_{IV\rightarrow III}=(-0{,}437\Delta T+0{,}484\Delta T^2-0{,}0014\Delta T^3)\cdot 10^{-2}$см/сек. Вычислена энергия активации IV→III превращения равная $E = 84.8\frac{кДж}{мол}$.

PACS: 76.30.,78.55.,78.60

Eu NADİR TORPAQ ELEMENTİ İLƏ AKTİVLƏŞDİRİLMİŞ $Ca(Al_xGa_{1-x})_2S_4$ BƏRK MƏHLULLARININ FOTOLÜMİNESSENSİYASININ TEMPERATURDAN ASILILIĞI

E.Q.ƏSƏDOV

Azərbaycan MEA Fizika institutu
AZ-1143, Bakı, H.Cavid pr., 131
elsenesedov@gmail.com

Daxil olub: 21.05.2019
Çapa verilib: 01.09.2019

REFERAT

$Ca(Al_xGa_{1-x})_2S_4:Eu^{2+}$ bərk məhlullarının 10÷300K temperatur intervalında fotolüminessensiya spektrlərinə baxılmışdır. Müəyyən edilmişdir ki, geniş zolaqlı FL spektrləri Eu^{2+} ionlarının $4f^65d - 4f^7(^8S_{7/2})$ keçidləri nəticəsində yaranır. x=0, 0.1, ..., 0.9, 1 intervalında dəyişdikdə FL spektrləri qısa dalğa tərəfə 44 nm sürüşür bu da spektrin yaşıl-sarı oblastında bərk məhlulların intensiv fotolüminessensiya malik olduğunu nümayiş etdirir. x=0.1 olan hal üçün bərk məhlulunun sıfırıncı fonon xəttinin enerjisi (E_0), qırmızı sürüşmə (D) və stoks sürüşməsinin (ΔS) qiymətləri həyəcanlanma və fotolüminessensiya spektrləri əsasında müəyyən edilmişdir.

Acar sözlər: fotolüminessensiya, bərk məhlul, qırmızı sürüşmə, stoks sürüşməsi

GİRİŞ

$A^{II}B_2^{III}C_4^{VI}$ şəklində olan, nadir torpaq elementləri ilə aşqarlanmış üçqat birləşmələri uzun illərdir ki, öyrənilərək müəyyən olunmuşdur ki, işıqlandırmada, sahə emissiya ekranlarında (FED) [1] , bərk cisim işıqlandırması üçün işıq diodlarında dalğa uzunluğu çeviricilərində [2] və elektrolüminessensiyada cəlbedici xüsusiyyətlərə malikdirlər [3, 4].

Eu^{2+} ionları ilə aktivləşdirilmiş $BaGa_2S_4$ və $CaGa_2S_4$ birləşmələri uyğun olaraq spektrin mavi-yaşıl (500nm) oblastında və sarı (555nm) oblastında intensiv şüalanmaya malikdirlər. Bu birləşmələrdə FL piklərinin yaranması isə Eu^{2+} ionlarının $4f^65d \rightarrow 4f^7$ elektron keçidləri ilə bağlıdır [5]. FL spektrlərinin forması və intensivliyi temperaturun təsirlərinə qarşı yüksək stabilliyə malikdir. Həmçinin, həyəcanlandırıcı mənbənin güc sıxlığının ($10^4 Vt/sm^2$) yüksək qiymətlərində belə birləşmələrin FL spektrlərinin forması və maksimumlarının yerləşmə vəziyyətləri, eləcə də FL intensivliyinin xəttiliyi yüksək stabillik nümayiş etdirir [6].

Son illərdə MGa_2S_4 - $M'Ga_2S_4$ (M, M'=Ba, Sr, Ca - QTE) qarışıq sistemlərinin optik xassələrinin tədqiq olunması dünya alimlərinin daha çox marağındadır. Bu tip sistemləri maraqlı edən ən vacib cəhət əsas matrisdə kation konsentrasiyalarının əvəzlənməsi ilə görünən oblastın geniş intervalında şüalanma spektrində sürüşmələrin əldə olunmasıdır [7, 8].

Bu işdə biz Ga atomlarının qismən Al atomları ilə əvəz edilməsi ilə Eu nadir torpaq elementi ilə aşqarlanmış $Ca(Al_xGa_{1-x})_2S_4$ bərk məhlulunun 10÷300K temperatur intervalında lüminessensiya xassələrini tədqiq etmişik.

EKSPERİMENT

$Ca(Al_xGa_{1-x})_2S_4$:Eu bərk məhlulu CaS, Al_2S_3 və Ga_2S_3 ikiqat birləşmələrindən yüksək temperaturda bərk cisim reaksiyası ilə sintez olunmuşdur. Əvvəlcə ikiqat birləşmələrin alınması həyata keçirilmişdir. İlk mərhələdə CaS binar birləşməsi alınmışdır. Bu birləşmə kvars ampulada Ar təsirsiz qazının atmosferində narın dispers kalsium karbonat ($CaCO_3$) tozunun hidrogen sulfid (H_2S) buxarı ilə qarşılıqlı təsiri nəticəsində 900°C temperaturda 20 saatlıq proses nəticəsində alınmışdır. Ga_2S_3 və Al_2S_3 birləşmələri isə kvars ampulada

xüsusi təmizliyə malik Ga, Al və S elementlərindən sintez edilmişdir. Ga_2S_3 birləşməsi 1150°C temperaturda Al_2S_3 birləşməsi isə 1200°C temperaturda havası sorulmuş kvars ampulada bərk cisim reaksiyası ilə 2 saatlıq proses nəticəsində alınmışdır. İkinci mərhələdə isə lüminoforun tərkib komponentləri olan CaS, Al_2S_3 və Ga_2S_3 ikiqat birləşmələri narın toz halına salınır və birləşmələr stexiometrik nisbətlərdə diqqətlə qarışdırılaraq bircins hala gətirilir, alınmış bircins qarışıq kvars ampulaya doldurulur. Ampula vakuum sisteminə qoşularaq havası 10^{-4}mm civə sütununa qədər sorulur. Kvars ampulaya yerləşdirilmiş komponentlər yüksək temperaturda (1050÷1100°C) sintez olunmuşdur. 1 saat müdətində yüksək temperaturda sintez prosesindən sonra 24 saat ərzində 800°C temperaturda tablama prosesindən keçirilmişdir.

Sintez olunmuş nümunələrin rentgen-faza analizlərinin nəticələrindən müəyyən olunmuşdur ki, $Ca(Al_xGa_{1-x})_2S_4$ bərk məhlullarında Al^{3+} ionlarının konsentrasiyasının artması ilə faza keçidi baş vermir bütün bərk məhlulların difraksiya spektrləri ortorombik sinqoniyalı, Fddd fəza qruplu kristal quruluşa uyğun gəlir.

NƏTİCƏLƏR VƏ MÜZAKİRƏ

Şəkil 1-də otaq temperaturunda ksenon lampadan istifadə olunmaqla $Ca(Al_{0.1}Ga_{0.9})_2S_4:Eu^{2+}$ bərk məhlullarının həyəcanlanma və fotolüminessensiya (FL) spektrləri çəkilmişdir. Həyəcanlanma spektri Eu^{2+} ionlarının $4f^7 \rightarrow 4f^6 5d$ elektron keçidləri ilə əlaqədardır və dalğa uzunluğunun 310nm-dən 520nm-ə qədər oblastını əhatə edən geniş zolaqdan ibarətdir (Şəkil 1, 1 əyrisi).

$Ca(Al_{0.1}Ga_{0.9})_2S_4:Eu^{2+}$ bərk məhlulunun FL spektri Eu^{2+} ionlarının 5d→4f elektron keçidi ilə əlaqədardır və işığın görünən oblastında geniş intervalda baş verir (480÷650nm). Şəkildən də göründüyü kimi FL spektrin maksimumu 558nm-ə uyğun gəlir və işığın dalğa uzunluğunun sarı oblastında intensiv şüalanmaya malikdir (Şəkil 1, 2 əyrisi).

Eu^{2+} sərbəst ionları üçün 4f və 5d səviyyələri arasındakı enerji fərqi $E_{sər}$=4.19eV təyin edilmişdir [5]. $Ca(Al_xGa_{1-x})_2S_4:Eu^{2+}$ bərk məhlullarında qırmızı sürüşmə (D) və Stoks sürüşməsinin (ΔS) qiymətləri həyəcanlanma və fotolüminessensiya spektrləri əsasında güzgü əksi qaydası tətbiq olunaraq müəyyən edilmişdir. x=0.1 olan hal üçün bu mənzərə Şəkil 1-də verilmişdir.



Şəkil 1

300K temperaturda $Ca(Al_{0.1}Ga_{0.9})_2S_4:Eu^{2+}$ bərk məhlulunun həyəcanlanma (*1*), fotolüminessensiya (*2*) və fotolüminessensiyanın güzgü əksi spektri (*2'*).

Həyəcanlanma və şüalanma spektrlərinin kəsişməsinə görə sıfırıncı fonon xəttinin enerjisi təyin edilmiş və x-in 0.1 qiyməti üçün E_0=2.382eV müəyyən olunmuşdur. 4f → 5d udulma (E_{ud}) və 5d → 4f şüalanma (E_{FL}) keçidlərinin enerjiləri asılılıqlara uyğun olaraq təyin edilmişdir [9]. Udulma və şüalanma enerjilərindən istifadə edərək qırmızı sürüşməni aşağıdakı düsturlarla təyin edə bilərik [10].

$$E_{FL}=E_{sər}-D-\Delta S \text{ və } E_{ud}=E_{sər}-D, \qquad (1)$$

harada ki, $E_{sər}$ - Eu^{2+} sərbəst ionları üçün 4f və 5d səviyyələrinin enerji fərqi, D - qırmızı sürüşmə, ΔS - Stoks sürüşməsidir. Şəkil 1-dən və (1) düsturundan alınır ki, $Ca(Al_{0.1}Ga_{0.9})_2S_4:Eu^{2+}$ bərk məhlulu üçün E_{FL}=2.22 eV, D=1.626eV, ΔS=0.344eV olduqda, udulma enerjisi təxminən 2.564eV qiymətinə malik olur.

Tətbiq olunan qayda əsasında müəyyən edilmiş parametrlərə uyğun olaraq Eu^{2+} ionunun $Ca(Al_xGa_{1-x})_2S_4$ matrisində energetik vəziyyəti təsvir olunmuşdur (Şəkil 2).



Şəkil 2
$Ca(Al_xGa_{1-x})_2S_4:Eu^{2+}$ bərk məhlullarının kristal sahəsində Eu^{2+} ionunun sxematik təsviri.

Aktivator ionu kristal qəfəsə daxil edildikdə, fotoluminessensiya xassələrinə iki əsas effekt təsir edir: Ağırlıq mərkəzinin (sentroid (E_s)) sürüşməsi və Kristal sahənin (E_k) hesabına parçalanma Bu effektlərin hər ikisi 5d və 4f səviyyələri arasında enerji fərqinə təsir edir və bir qrup bərk məhlullarda FL spektrləri uzun dalğa tərəfə yəni kiçik enerjilərə tərəf bir qrup bərk məhlullarda isə qısa dalğa tərəf yəni böyük enerjilərə tərəf sürüşür. Nəticədə spektrlər qırmızı və mavi sürüşmə kimi təyin edilir. Qırmızı sürüşmə baş verən bərk məhlullarda 5d və 4f səviyyələri arasında enerji fərqi kiçilir. Mavi sürüşmə baş verən bərk məhlulların 5d və 4f səviyyələri arasında enerji fərqi isə böyüyür.

$Ca(Al_xGa_{1-x})_2S_4:Eu^{2+}$ (x=0, 0.1, ..., 0.9, 1) bərk məhlulları üçün otaq temperaturunda çəkilmiş FL spektrlərinə baxılmışdır. x=0, 0.1, 0.5, 0.9 və 1 qiymətləri üçün fotolüminessensiya spektrlərinin maksimumlarının dalğa uzunluqları uyğun olaraq λ_{FL}=560, 558, 538, 522 və 516nm-dir (Şəkil 3). Spektrlərin 44nm qısa dalğalara tərəf sürüşdüyünü aydın görürük, bu da $Ca(Al_xGa_{1-x})_2S_4:Eu^{2+}$ bərk məhlullarının spektrin yaşıl-sarı oblastında intensiv fotolüminessensiya malik olduğunu nümayiş etdirir. Şüalanma piklərinin mavi sürüşməsi sentroid sürüşməsi hesabınadır [8]. $Ca(Al_xGa_{1-x})_2S_4:Eu^{2+}$ bərk məhlullarında Al və Ga ionları kationlardır və anion aşqarları ilə polyarizasiya olunurlar. Güclü polyarizasiya evropiumun 5d elektronları və anionlar arasında qarışılıqlı təsirin yaranmasına gətirir. Ga-un eyni valentliyə malik Al ilə əvəz olunması əks kationların elektromənfilik effektinin artmasına və anion aşqarlarına birləşməsinə gətirir. Buna görədə nəticədə anion və Eu^{2+} ionları arasında polyarizasiya kovolentlik azalır. Bu isə sentroid sürüşməsinin kiçilməsinə səbəb olur. Sentroid sürüşməsinin kiçilməsi şüalanma spektrində mavi sürüşmə ilə özünü göstərir.



Şəkil 3
Otaq temperaturunda $Ca(Al_xGa_{1-x})_2S_4:Eu^{2+}$ bərk məhlullarının FL (*1*-*5*) spektrləri. x-in qiymətlərinə uyğun dalğa uzunluqları: 0 - 560nm, 0.1 - 558nm, 0.5 - 538nm, 0.9 - 526nm və 1 - 51nm.

7%Eu^{2+} ionları ilə aktivləşdirilmiş $Ca(Al_{0.5}Ga_{0.5})_2S_4:Eu^{2+}$ bərk məhlulunun FL intensivliyinin 10÷300K temperatur intervalında necə dəyişdiyinə baxılmışdır (Şəkil 4). Həyəcanlandırıcı mənbə kimi 337nm dalğa uzunluqlu impuls şüalanmasına malik N_2 lazerindən istifadə edilmişdir. Şəkildən də göründüyü kimi maksimumların vəziyyəti temperaturun dəyişməsi ilə sabit qalır. FL intensivliyi isə temperaturun yuxarı qalxması ilə azalır. temperaturun artması ilə FL intensivliyinin azalması elədə böyük deyil. Belə ki, 10÷300K temperatur intervalında bu azalma 35%-dən aşağıdır. Bu isə tədqiq olunan bərk məhlulun lüminofor kimi üstünlyünü göstərir.

10K temperaturda buraxılan spektrlərin maksimumları $Ca(Al_{0.5}Ga_{0.5})_2S_4:Eu^{2+}$ bərk məhlulları üçün 538nm dalğa uzunluquna uyğundur. Qeyd edək ki, temperaturun qiyməti 10K-dən 300K-ə

qədər artdıqca, *x*-ın bütün qiymətlərində FL spektrləri monoton olaraq 28nm genişlənir.



Şəkil 4
Temperaturun 10÷300K intervalında $Ca(Al_{0.5}Ga_{0.5})_2S_4:Eu^{2+}$ bərk məhlulunun fotolüminessensiya spektrləri. Həyəcanlandırıcı mənbənin dalğa uzunluğu $\lambda_{həy}$=337nm (N_2-lazeri).

Bu genişlənmənin səbəbi temperaturun artması ilə həyəcanlanmış haldan əsas hala enerji keçidlərinin sayının artmasıdır.

NƏTİCƏ

$Ca(Al_xGa_{1-x})_2S_4:Eu^{2+}$ bərk məhlulların FL spektrlərində 480-650nm dalğa uzunluğunda müşahidə edilən geniş zolaqlı spektrlər Eu^{2+} ionlarının $4f^65d \rightarrow 4f^7$ mərkəz daxili keçidləri ilə bağlıdır və FL spektrlərinin maksimumları *x*-in dəyişməsilə 560nm-dən 516nm-ə qədər sürüşür. Müəyyən olunmuşdur ki, $Ca(Al_xGa_{1-x})_2S_4:Eu^{2+}$ bərk məhlullarında Al^{3+} ionlarının miqdarının artması sentroid sürüşməsini azaldır və nəticədə $5d \rightarrow 4f$ enerji keçidlərinin böyüməsi və FL spektrinin qısa dalğa tərəfə sürüşməsi baş verir. Temperaturun 10÷300K intervalında FL-nın inteqral intensivliyi yüksək stabillik göstərir və temperatur artıqca intensivliyin azalması *x*-in bütün qiymətləri üçün 35%-dən aşağı olur.

1. S.Yang, C.Stoffers, F.Zhang, et al. *Green phosphor for low-voltage cathodoluminescent applications: $SrGa_2S_4:Eu^{2+}$, Appl. Phys. Lett.*, **72** (1998) 158-160.
2. G.Bizarri, B.Moine. *On $BaMgAl_{10}O_{17}:Eu^{2+}$ phosphor degradation mechanism by vacuum-ultraviolet excitation, J. of Apply. Phys.*, **98** (2005) 113528.
3. P.Benalloul, C.Barthou, J.Benoit. *$SrGa_2S_4:RE$ phosphors for full colour electroluminescent displays, J. Alloys Compds.*, **277** (1998) 709-715.
4. P.F.Smet, D.Poelman, R.L.Van Meirhaeghe. *Blue electroluminescence from multilayered $BaS:Eu/Al_2S_3$ thin films, J. Appl. Phys.*, **95** (2004) 184-190.
5. M.Nazarov, D.Y.Noh, H.Kim. *Structural and luminescent properties of calcium, strontium and barium thiogallates, Mat. Chem. and Phys.*, **107**(2008) 456-464.
6. V.Z.Zubelevich, E.V.Lutsenko, A.V.Danilchik et al. *Effect of excitation level on the photoluminescence of barium thiogallate activated with europium and cerium ions, J. of Appl. Spec.*, **78** (2011) 234-239.
7. Ki-Young Ko, Young-Duk Huh, Young Rag Do. *Cathodoluminescence and longevity properties of potential $Sr_{1-x}M_xGa_2S_4:Eu$ (M=Ba or Ca) green phosphors for field emission displays , Bull. - Korean Chem. Soc.*, **29** (2008) 822-826.
8. R.Yu, J.Wang, M.Zhang et al. *Luminescence properties of $Ca_{1-x}Sr_x(Ga_{1-y}Al_y)_2S_4:Eu^{2+}$ and their potential application for white LEDs, J. of the Electrochem. Soc.*, **155** (2008) J290-J292.
9. P.Dorenbos. *Energy of the first $4f^7$-$4f^65d$ transition of Eu^{2+} in inorganic compounds, Journal of Luminescence*, **104** (2003) 239-260.
10. Б.Г.Тагиев, О.Б.Тагиев, Е.Г.Асадов. *Фотолюминесценция соединений $Ca(Al_xGa_{1-x})_2S_4:Eu^{2+}$, Оптика и спектроскопия*, **122** (2017)780-786.

TEMPERATURE DEPENDENCE OF THE PHOTOLUM INESCENCE OF $Ca(Al_xGa_{1-x})_2S_4$ SOLID SOLUTIONS ACTIVATED WITH Eu RARE-EARTH ELEMENT

E.G.ASADOV

The photoluminescence (PL) properties of $Ca(Al_xGa_{1-x})_2S_4:Eu^{2+}$ solid solutions have been studied at the temperature range of 10÷300K. It was determined that, the wide band PL spectrum are formed due to the $4f^65d - 4f^7(^8S_{7/2})$ transitions of Eu^{2+}

ion. Synthesized solid solutions (x=0, 0.1, ..., 0.9, 1) have been demonstrated intense photoluminescence in the green-yellow range of spectrum and the position of maximums have been shifted 44nm to short wavelength by increasing x. The values of zero phonon energy (E_0), redshift (D) and stokes shift (ΔS) are determined in the base of excitation and photoluminescence spectra for x=0.1.

ТЕМПЕРАТУРНАЯ ЗАВИСИМОСТЬ ФОТОЛЮМИНЕСЦЕНЦИИ ТВЕРДЫХ РАСТВОРОВ $Ca(Al_xGa_{1-x})_2S_4$, АКТИВИРОВАННЫХ РЕДКОЗЕМЕЛЬНЫМИ ЭЛЕМЕНТАМИ Eu

Э.Г.АСАДОВ

В области температур 10÷300K рассмотрены спектры фотолюминесценции (ФЛ) твердых растворов $Ca(Al_xGa_{1-x})_2S_4:Eu^{2+}$. Показано, что широкополосные спектры ФЛ обусловлены $4f^65d\text{-}4f^7(^8S_{7/2})$ переходами ионов Eu^{2+}. При изменении x в интервале x=0, 0.1, ..., 0.9, 1 спектры ФЛ смещаются в сторону коротких длин волн на 44нм, что указывает на наличие интенсивной ФЛ исследуемых твердых растворов в желто-зеленый области. Значения энергии нулевой фононной линии красного и стоксового смещений для случая x=0.1 были определены на основании спектров возбуждения и ФЛ.

PACS: 61.20. - p; 77.22. - d; 77.22.Gm

ДИЭЛЕКТРИЧЕСКИЕ СВОЙСТВА СИСТЕМЫ БЕНЗОЛ-БРОМБЕНЗОЛ

Ч.О.КАДЖАР, С.Т.АЗИЗОВ

Институт Физики НАН Азербайджана
AZ 1143, г. Баку, пр. Г.Джавида, 131.
samir_azizov@mail.ru

Получена: 05.07.2019
Принята к печати: 01.09.2019

Ключевые слова: диэлектрическая спектроскопия, диэлектрическая проницаемость, диэлектрические свойства растворов бензол-бромбензол.

РЕФЕРАТ

Приведены результаты исследования диэлектрической проницаемости при частоте 3Мгц по резонансному методу для системы бензол-бромбензол. Измерения проводились в интервале температур от 20 до -100°С, который охватывает жидкую фазу, фазу между линиями ликвидуса и солидуса и твердую фазу. Определена температурная зависимость времени диэлектрической релаксации молекул в жидком состоянии. Вычислены термодинамические величины, характеризующие процесс диэлектрической релаксации.

ВВЕДЕНИЕ

Исследование диэлектрических свойств способно существенно дополнить результаты физико-химического анализа и позволяет выявить такие особенности молекулярного теплового движения, которые нельзя обнаружить с помощью обычной методики. Так, на основании измерения температурно-концентрационной зависимости равновесной диэлектрической проницаемости ε_o системы бензол-бромбензол удалось построить более полную диаграмму состояния, чем по данным термического анализа [1]. Правильность этой диаграммы в дальнейшем была подтверждена данными метода ЯМР [2].

ЭКСПЕРИМЕНТАЛЬНАЯ ЧАСТЬ

В интервале температур от 20 до -100°С была измерена диэлектрическая проницаемость системы бензол-бромбензол при частоте 3Мгц и содержании бромбензола в мольных долях 0,086; 0.175; 0,267; 0,361; 0.459 и 0,64. Кроме того, в тех же температурных пределах была измерена диэлектрическая проницаемость ε' и показатель поглощения ε'' на волнах длиной 4.0 и 2,14см при содержании бромбензола в мольных долях 0,175; 0,267; 0,361 и 0,64.

Измерения при частоте 3Мгц проводились по резонансному методу [2]. Погрешность значений ε_0 не превышает 1%. Значения ε' и ε″ измерены в области микроволн по методу Поли [3] в жидкой фазе и по методу короткозамкнутой линии [4] при более низких температурах. Погрешность ε' составляет 1÷2%, ε'' - не более 3÷5%. Все измерения проводились при непрерывном охлаждении со скоростью 0,1град/мин. Физические константы очищенных соединений хорошо согласуются с данными, имеющимися в литературе [5].

На Рис. 1 показаны кривые температурной зависимости равновесной диэлектрической проницаемости ε_o шести растворов системы бензол-бромбензол. На всех кривых четко выявляются скачкообразные изменения ε_0. Зависимость температур, соответствующих этим изменениям, от концентрации в пределах точности опыта совпадает с диаграммой состояния (Рис. 2), определенной с помощью термического анализа [6]. В точках начала кристаллизации равновесная диэлектрическая проницаемость ε_0 возрастает скачком, величина которого увеличивается с уменьшением концен-

трации полярного компонента. На кривой 6 (Рис. 1), которая соответствует эвтектической концентрации, этот скачок отсутствует.



Рис.1

Температурная зависимость равновесной диэлектрической проницаемости ε_0 растворов бензол-бромбензол при содержании бромбензола в мольных долях: 1 - 0,086; 2 - 0,175; 3 - 0,267; 4 - 0,361; 5 - 0.459: 6 - 0,640.



Рис.2

Диаграмма состояния системы бензол-бромбензол.

Эвтектика - это нонвариантная точка в системе из n компонентов, в которой находятся в равновесии несколько твердых фаз и жидкая фаза. Эвтектическая композиция представляет собой жидкий раствор, кристаллизующийся при наиболее низкой температуре для сплавов данной системы. Соответственно, температура плавления сплава эвтектического состава также самая низкая по сравнению со сплавами другого состава для данной системы компонентов [7].

Судя по диаграмме состояния, скачок равновесной диэлектрической проницаемости ε_o обусловлен переходом бензола в твердую фазу, где диэлектрическая проницаемость бензола больше значения, соответствующего жидкой фазе, за счет увеличения плотности. С дальнейшим понижением температуры кристаллизация бензола продолжается, а состав жидкой фазы обогащается бромбензолом. Возникшие таким путем неоднородности должны уменьшить ε_0 по сравнению с теми значениями, которых следовало бы ожидать на основании данных для температур выше линии ликвидуса.

Действительно, при переходе через линию ликвидуса наклон температурной зависимости ε_0 уменьшается. Наиболее ощутимо это выражено при малых концентрациях бромбензола, которым соответствует наибольшее удаление ликвидуса от солидуса. Ниже линии солидуса, где оба компонента находятся в твердом состоянии, вклад ориентационной части в полную поляризацию устраняется и ε_0 резко падает до значения, несколько превышающего квадрат оптического показателя преломления.

Рассмотрение Рис. 1 и Рис. 2 позволяет выделить две области температур, в которых молекулы бромбензола обладают определенной ориентационной свободой, поэтому несомненный интерес представляет получение количественной информации о кинетике процесса поляризации дипольных молекул в условиях такого изменения ближнего порядка. С этой целью была измерена температурная зависимость диэлектрических коэффициентов указанных растворов на волнах длиной 4,0 и

2,1см, где, согласно [8], должна наблюдаться основная область поглощения.

На Рис. 3 показаны значения ε' и ε" для раствора с содержанием бромбензола в мольных долях 0,267 на волне длиной 4,0см. Аналогичный вид имеют кривые для других до эвтектических растворов на обеих длинах волн.



Рис.3

Температурные зависимости диэлектрической проницаемости ε′ и показателя электрического поглощения ε″ раствора бензол-бромбензола при содержании бромбензола в мольных долях 0,267 на волне длиной 4,0см.

Как видно из Рис. 3, и здесь при переходе через точку начала кристаллизации на кривых обнаруживаются изменения, в данном случае в виде изломов. Ниже линии ликвидуса дисперсия заметно смещается в сторону более низких частот и появляется небольшое симметричное распределение времен релаксации около наиболее вероятного времени релаксации τ_0, растущее с понижением температуры. В интервале ликвидус-солидус частотная зависимость ε' и ε" подчиняется уравнению Коула-Коула [9]

$$\varepsilon^* = \varepsilon' - i\varepsilon'' = \varepsilon_\infty + \frac{\varepsilon_0 - \varepsilon_\infty}{1 + i\omega\tau_0^{1-a}}, \qquad (1)$$

где ε_∞ - высокочастотная диэлектрическая проницаемость, a - параметр распределения времен релаксации, ω - круговая частота, $i = \sqrt{-1}$.

Выше линии ликвидуса a=0. Времена диэлектрической релаксации определялись по графическому методу Коула-Коула [9] и приведены в Таблице 1.

С помощью теории абсолютных скоростей реакций [10] можно более подробно изучить активацию процесса диэлектрической релаксации. В этой теории устанавливается связь между временем диэлектрической релаксации и термодинамическими параметрами активации

$$\tau_0 = \frac{h}{kT} \exp\frac{\Delta F}{RT} = \frac{h}{kT} \exp\frac{\Delta H}{RT} \exp\left(-\frac{\Delta S}{R}\right), \qquad (2)$$

где ΔF, ΔH, ΔS - свободная энергия, энтальпия и энтропия активации, h - постоянная Планка, k - постоянная Больцмана, R - газовая постоянная, T - абсолютная температура.

Величина ΔF рассчитывается по уравнению

$$\Delta F = 2{,}303RT\lg(2{,}08\cdot10^{10}\tau_0 T). \qquad (3)$$

Энтропия активации ΔH находится из наклона зависимости lg (τ_0T) от $\frac{1}{T}$ согласно уравнению

$$\Delta H = 2{,}303\ R\ \frac{d\lg(\tau_0 T)}{d\,(1/T)}, \qquad (4)$$

а энтропия активации ΔS из уравнения

$$\Delta F = \Delta H - T\Delta S. \qquad (5)$$

Результаты расчетов представлены в Таблице 1.

В области температур между ликвидусом и солидусом эффективная энтальпия активации возрастает примерно в 2,5 раза по сравнению со значением для жидкой фазы (Рис. 4), что указывает на увеличение энергии, необходимой при активации для разрыва молекулой своих связей с окружающими молекулами. Такой вывод согласуется с тем, что по диаграмме состояния в этой области температур диэлектрическая релаксация протекает в участках с повышенной концентрацией бромбензола при одновременном уменьшении объема, занимаемого жидким раствором. Возрастание энтропии активации показывает, что в процессе ориентации диполей уменьшается упорядоченность по сравнению с нормальным состоянием.

Таблица 1

T,^{0}K	10^{11} τ_0 сек	ΔF, кал/моль	ΔS кал/моль·.град	T,^{0}K	$10^{11}\tau_0$ сек	ΔF, кал/моль	ΔS кал/моль.град	T,^{0}K	$10^{11}\tau_0$ сек	ΔF, кал/моль	ΔS кал/моль·.град
содержании бромбензола системы бензол- бромбензол в мольных долях 0,175				содержании бромбензола системы бензол-бромбензол в мольных долях 0,267				содержании бромбензола системы бензол-бромбензол в мольных долях 0,361			
293	1,18	2,49	–4,06	293	1,30	2,55	–4,03	293	1,43	2,60	–3,96
283	1,30	2,44	–4,03	283	1,42	2,49	–3,96	283	1,56	2,54	–3,89
273	1,48	2,40	–4,03	273	1,64	2,46	–3,99	273	1,78	2,50	–3,88
263	1,69	2,36	–4,03	263	1,89	2,43	–4,03	263	2,10	2,48	–3,95
				256,5	2,05	2,39	–3,98	253	2,38	2,43	–3,91
								248	2,61	2,41	–3,91
ΔH = 1,30 ккал/моль				ΔH = 1,37 ккал/моль				ΔH = 1,44 ккал/моль			
263	1,99	2,45	7,72								
253	2,84	2,52	7,75	256,5	2,27	2,44	7,45				
243	4,44	2,65	7,53	253	2,57	2,47	7,43	248	2,78	2,45	7,14
233	6,58	2,67	7,77	243	3,75	2,53	7,49	243	3,50	2,50	7,08
223	10,7	2,75	7,76	233	5,68	2,60	7,51	233	5,07	2,55	7,17
				223	9,22	2,68	7,49	223	8,16	2,63	7,13
ΔH = 4,48 ккал/моль				ΔH = 4,35 ккал/моль				ΔH = 4,22 ккал/моль			

Благодаря большому росту ΔH и ΔS свободная энергия активации остается почти такой же, как в жидкой фазе.



Рис.4

Зависимость lg (τ_0T) от 1/T растворов бензол-бромбензол при содержании бромбензола в мольных долях: 1- 0,175; 2 - 0,267; 3 - 0,361; 4 - 0,640; 5 - 1,000.

Наблюдаемые эффекты нельзя объяснить лишь одним изменением концентрации, ибо времена релаксации в области ликвидус-солидус не только выше значений, соответствующих эвтектической концентрации, но даже превышают значения для чистого бромбензола (Рис. 4). Из данных диэлектрических измерений следует, что при температурах ниже линии ликвидуса участки объема, занимаемые жидкой фазой, характеризуются более высокой упорядоченностью молекул, кинетическое поведение которых существенно отличается от наблюдаемого в жидком состоянии выше линий ликвидуса.

ЗАКЛЮЧЕНИЕ

В области температур между ликвидусом и солидусом эффективная энтальпия активации возрастает примерно в 2,5 раза по сравнению со значением для жидкой фазы, что указывает на увеличение энергии, необходимой при активации для разрыва молекулой своих связей с окружающими молекулами. Такой вывод согласуется с тем, что по диаграмме состояния в этой области температур диэлектрическая релаксация протекает в участках с повышенной концентрацией бромбензола при одновременном уменьшении объема, занимаемого жидким раствором. Возрастание энтропии активации показывает, что в процессе ориентации диполей уменьшается упорядоченность.

При построении зависимости логарифма времен релаксации от обратной абсолютной температуры точки хорошо укладываются на прямые, из наклона которых была определена энергия активации. При переходе через линию ликвидуса время релаксации увеличивается скачком, а энергия активации возрастает более чем в 2,5 раза. Найденную энергию активации следует считать эффективной, поскольку изменение времен релаксации в интервале ликвидус-солидус зависит не только от температуры, но и от концентрации.

1. А.Ф.Скрышевский. Структурный анализ жидкостей и аморфных тел. М.:Высшая школа, (1980) 328.
2. Я.Ю.Ахадов. Диэлектрические свойства бинарных растворов. М., Наука, (1977) 322.
3. D.Constantinescu, K.Schaber. Viscosities, vapor pressures, and excess enthalpies of choline lactate+water, choline glycolate+water, and choline methane-sulfonate+water systems, J. Chem. Eng., **52** (2007) 1280-1285.
4. Я.Ю.Ахадов. Диэлектрические параметры чистых жидкостей, Москва, (1999) 854.
5. R.M.Villamanan, M.C.Martin, C.R.Chamorro, J.Segovia. Vapor-liquid equilibrium of binary and ternary mixtures containing isopropyl ether, 2-butanol, and benzene at T=313.15K, J. Chem. Eng., **51** (2006) 148-152.
6. А.М.Рудаков, В.В.Сергиевский. Активность компонентов бинарных растворов глицерин вода при 298,15К, Ж. физ. химии, 80 (2006) 2026-2031.
7. R.G.Mortimer. Physical Chemistry, second edition, Academic Press: San Diego, (2000) 1116.
8. S.T.Azizov, O.A.Aliev, R.G.Abaszade. Low-frequency dielectric properties of acetone, International Journal of Latest Research in Science and Technology, **5** (2016) 58-62.
9. K.Tochigi, K.Akimoto, K.Ochi, F.Liu, Y.Kawas. Isothermal vapor liquid equilibria for water +2-aminoethanol+dimethyl sulfoxide and its constituent three binary systems, J. Chem: Eng., **44** (1999) 588-590.
10. B.Kaussmann, R.Matzky, G.Opel, E.Vogel. Second virial coefficient and viscosity coefficient of fluorobenzene vapor and their calculation from lennard-jones-(m-n) equations for the intermolecular potential, Z. Phys. Chem. (Leipzig), **258** (1977) 730-742.

BENZOL-BROMOBENZOL SISTEMİNİN DİELEKTRİK XASSƏLƏRİ

Ç.O.QACAR, S.T.ƏZİZOV

Məqalədə benzol-bromobenzol sistemi üçün əldə edilən kompleks dielektrik nufuzluğun tədqiqat nəticələri təqdim edilib. Tədqiqat nəticələri 3MHz tezlikdə rezonans metodu ilə ölçülmüşdür. Ölçmələr maye fazı, maye və solidus xətləri arasındakı faza və qatı fazı əhatə edən 20 ilə -100°C arasında olan temperatur intervalında həyata keçirilmişdir. Maye vəziyyətdə olan molekulların dielektrik relaksasiyası vaxtı (zamanı) temperaturdan asılılığı müəyyən edilib. Dielektrik relaksasiya prosesinin xarakterizə edən termodinamik kəmiyyətlər hesablanıb.

THE DIELECTRIC PROPERTIES OF THE SYSTEM BENZENE - BROMOBENZENE

Ch.O.QAJAR, S.T.AZIZOV

The results of research of dielectric permeability for the benzene-bromobenzene system measured at a frequency of 3MHz by the resonance method have been presented. The measurements have been carried out in the temperature range from 20 to -100°C, which encompasses a liquid phase, phase between the solidus and liquidus lines and solid phase. The temperature dependence of the dielectric relaxation time for molecules in the liquid state has been determined. The thermodynamic quantities characterizing the dielectric relaxation process have been calculated.

PACS: 71.20.Eh, 72.20.Jv, 72.40.+W, 71.35.Cc.

$TlGa_{1-x}Er_xSe_2$ (x=0; 0,005) KRISTALLARININ ELEKTRİK VƏ DİELEKTRİK XARAKTERİSTİKALARI

K.M.HÜSEYNOVA

AMEA Fizika İnstitutu
AZ 1143, Bakı, H.Cavid prospekti, 131
kama.mag@rambler.ru

Daxil olub: 21.05.2019
Çapa verilib: 01.09.2019

REFERAT

Dəyişən elektrik sahəsində $TlGa_{1-x}Er_xSe_2$ bərk məhlullarının dielektrik nüfuzluğu, keçiriciliyi və dielektrik itgi bucağının tangensi 150-300K temperatur intervalında öyrənilmişdir. Tədqiq olunmuş kristallarda temperaturdan asılı olaraq dielektrik nüfuzluğunun dəyişməsi kiçik tezliklərdə relaksasiya polyarizasiyasının olması ilə əlaqədardır. $TlGa_{1-x}Er_xSe_2$ (x=0; 0,005) bərk məhlulun $\sigma_{ac}(f)$ asılılıq əyrilərində 10^2-10^4Hs tezliklərdə $\sigma_{ac} \sim f^{0.8}$ qanuna tabe olur. Bu da onu göstərir ki, öyrənilən kristallarda Fermi səviyyəsi yaxınlığında lokallaşmış hallar üzrə sıçrayışlı keçiricilik baş verir. $TlGaSe_2$ kristalının Er ilə aşqarlanması Fermi səviyyəsi yaxınlığında lokallaşmış halların sıxlığını artırır, energetik səpilməni daraldır.

Açar sözlər: bərk məhlullar, dielektrik nüfuzluğu, dielektrik itgi bucağının tangensi, elektrik keçiriciliyi.

GİRİŞ

$TlGaSe_2$ kristalı tallium halkogenid $A^{III}B^{III}C^{VI}_2$ tipli birləşmələrinə aid laylı quruluşa malikdir. Geniş zonalı yarımkeçiricilər ailəsinə daxil olan $TlGaSe_2$ kristalı perspektivli materialdır. Bunun əsasında fotoelektrik keçiricilər, spektr analizatoru və rentgen neytron şüalanma detektorları hazırlanır [1]. $TlGaSe_2$ kristalları monoklin struktura malik olub, fəza qrupu C2/c-C^6_{2h}-dır və elementar qəfəs parametrləri a=10.772Å, b=10.771Å, c=15.636Å, β=100,6^o [2].

$A^{III}B^{III}C^{VI}_2$ tip ailəyə məxsus kristalların spesifik xüsusiyyəti ondan ibarətdir ki, bu yarımkeçiricilər həm də seqnetoelektrik xassələrə malikdirlər. Laylı quruluşlu olduğundan politip modifikasiyalar əmələ gəlir və buda onların fiziki xassələrinin dəyişməsinə səbəb olur [3]. Bundan başqa bu tip kristalların çox saylı nümayəndəsi ardıcıl faza keçidinin olması ilə fərqlənir. Bu onlarda uzunperiodlu ölçüyə gələn və ölçüyə gəlməyən modullaşmış ifratstrukturlu olması ilə və onların temperaturun dəyişməsi ilə nəticələnir [4]. Bu kristallar praktik tətbiqə görə də əhəmiyyətlidirlər.

TƏCRÜBİ HİSSƏ

Təqdim olunan məqalədə bitki örtüyünün optik xarakteristikalarının kəmiyyətcə qiymətləndirilməsinin daha mükəmməl emal tətbiqinin araşdırılması göstərilmişdir.Qoudrian modeli əsasında çoxkanallı sistemlərdən alınan məlumatların qarşılıqlı müqayisəsi əsasında kəmiyyət göstəricilərinin optimal qiymətləndirməsi mümkünlüyü göstərilmişdir. Müxtəlif spektral əks olunma modellərinin ümumiləşdirilmiş nəticələrinin təhlili əsasında Qoudrian modelinin tətbiqinin göstəriçiləri aşkar edilmişdir.

Ekoloji problemlərin mövcudluğu və getdikcə kəskinləşməsi şəraitində, biosferin durumunun qiymətləndirilməsində və nəzarət sistemləri vasitəsilə böyük ərazilərin əhatə olunmasında, informasiyanın operativ surətdə çatdırılmasında çoxkanallı skaner sistemləri daha önəmli rol oynayır. Bu sistemlərin vasitəsi ilə informasiyanın alınması, müasir texnologiyalar əsasında email və interpretasiyası bitki örtüyünün bəzi parametrlərinin kəmiyyətcə qiymətləndirilməsində əhəmiyyətli yer tutur.

Məlum olduğu kimi, bitki örtüyünün optik xüsusiyyətlərinin qiymətləndirilməsində Qoudrian modeli bu sahədə tətbiq olunan digər modellərə nisbətən daha mükəmməl olduğundan, onun çoxkanallı sistemlərə tətbiqinin mümkünlüyünün bəzi aspektlərini nəzərdən keçirək. Qoudrian modeli siqnalın inteqral əksetmə və zəifləmə xüsusiyyətləri əsasında qurulduğundan, onun çoxkanallı sistemlərə tətbiqində müəyyən məsələlər nəzərə alınmalıdır [1]. Qoudrian modelində bitki örtüyü üfüqi istiqamətdə fitoelementlərin təsadüfi qanunauyğunluqla paylanmış bir səth kimi, şaquli istiqamətdə isə *m* saylı nazik elementar təbəqələrdən ibarət bir sistem kimi qəbul edilib. Bu system üçün baxılan istiqamətdə *(θ)* və fitoelementlərin əks etdirmə istiqamətindən (θ_f) asılı olaraq inteqral radiasiya selinin zəifləməsi yarpağın L_{ef} sahəsindən asılı olur (Şəkil 1), yəni

$$L_{ef}(\theta_f,\theta)=\frac{L_S G(\theta_f,\theta)}{sin\theta}, \qquad (1)$$

burada L_s - fitoelementlərin ümumi sahəsi; $G(\theta_f, \theta)$ - verilən istiqamətlə fitoelementlərin əks etdirmə xüsusiyyətini təyin edən asılılıqdır.



Şəkil 1
ΔS sahəsini əhatə edən bitki örtüyündən şüalanmanın qeydə alınması.

Əgər bitki örtüyünün təbəqələrindən şüanın bir hissəsi zəifləmədən keçirsə, onun miqdarı

$$M(\theta_f, \theta)=1-L_{ef}(\theta_f, \theta) \qquad (2)$$

olur. *M*-in hesablanması fitokütlənin miqdarını, onun qiymətini müəyyənləşdirir. İnteqral əks olunmada fitoelementlərin səpələnməsinin Lambert tipli olmasının qəbul edilməsinə baxmayaraq, bitki örtüyünün bütün təbəqələri ilə səpələnən şüalar müəyyən bucaq paylanmalarına malik olurlar. Bunun səbəbi izotrop səthlərdən fərqli olaraq L_{ef} ilə θ arasında funksional asılılığın olmasıdır. Çəki funksiyası $B_l(\theta_0,\theta_f)$ bu effekti nəzərə alır. Yəni

$$B_l(\theta_0,\theta_f)=\frac{B_u(\theta_0)L_{ef}(\theta_0,\theta_f)}{\sum_{Qs=1}^{n}B_u(\theta_s)L_{ef}(\theta_s,\theta_0)}, \qquad (3)$$

burada θ_0 - düşən şüa selinin istiqaməti; θ_s- səpələnən şüa selinin istiqaməti; B_u - *f* meyllik bucağı istiqamətində şüalanmanın bütün istiqamətlərə bərabər paylanmasını əks etdirir və aşağıdakı kimi təyin olunur

$$B_u(\theta)=\int_{\theta_1}^{\theta_2}2sin\theta cos\theta d\theta. \qquad (4)$$

Əgər fərz olunsa ki, bütün təbəqələrdə olan fitoelementlərin parlaqlığı onların meyl bucağından asılı deyil, bu halda

$$L_{ef}(\theta)=L_S G(\theta)sin\theta, \qquad (5)$$

burada L_s - birbaşa Günəş radiasiyasının qiymətidir.

Burada tənliyin həlli məlum sərhəd şərtləri daxilində aparılır [2-4]. Bu məsələləri çoxkanallı sistemlərə tətbiqini nəzərdən keçirək.

BİTKİ ÖRTÜYÜNÜN SPEKTRAL ƏKS ETMƏ MODELİNİN QURULMASI

Təyyarə - laboratoriyalar vasitəsi ilə əldə olunmuş məlumatların təhlili göstərir ki, müxtəlif göstəricilərə malik (fitokütlənin həcmi, torpağın təsiri və s.) bitki örtüyünün spektral parlaqlıq əmsalının *p(λ)* qiymətinə əsasən bitki örtüyünün, atmosferi və istifadə olunan spektral kanalın xüsusiyyətləri, ölçmələr aparan texniki avadanlığın göstəriciləri və ölçmə nəticələrinə digər təsir edən parametrlərin qarşılıqlı əlaqəsinə görə məsafədən alınan məlumatlar əsasında bitki örtüyünün parametrlərini qiymətləndirmək olar.Aerokosmik avadanlıqlar vasitəsi ilə bitki örtüyünün tədqiqi üçün spektrin görünən və infraqırmızı (İQ) spektral kanallarından geniş şəkildə istifadə olunur [5-8]. Şəkil 2-də təqdim edilən qrafik materiallarda AVHRR radiometr və MSS spektrometrin spektral həssaslığı *R(λ)*əks etdirilmişdir (λ - ölçmənin dalğa uzunluğudur).

Bu avadanlıqlar uyğun olaraq ABŞ-a məxsus NOAA və «Landsat» peyklərində quraşdırılmışdır. Göstərilən avadanlıqlardan alınan məlumatlar əsasında bizim tərəfimizdən bitki örtüyünün parametrlərinin qiymətləndirilməsinin təkmilləşdirilməsi məsələsinə baxılmışdır.



Şəkil 2
AVHRR *(a)* və MSS avadanlıqlarının əhatə etdiyi spektral kanalları.

İfadə (1)-ə uyğun olaraq kosmosdan yuxarıda göstərilən çoxkanallı sistemlər vasitəsi ilə bitki

örtüyündən əks olunan şüalanmanın qiyməti aşağıdakı kimi, belə ki, *i*-ci kanal üzrə *k* tipli avadanlığın tətbiqi ilə əks olunan şüalanmanın qiyməti belə təyin olunur:

$$L_{efi}(m,k,r,M,\theta,h_{\otimes}) = \quad (6)$$

$$= \frac{1}{2\pi^2}\int_0^{2\pi}\int_0^{\pi/2}\int_{\lambda_1}^{\lambda_2}[L_s(\mathrm{m},\lambda,\mathrm{h}_{\otimes}) + L_{s.səp}(\mathrm{m},\lambda,\mathrm{h}_{\otimes})] \times \rho_i(\lambda,\mathrm{m},\theta,\mathrm{r})$$

burada $L_s(m,\lambda,h_{\otimes})$ - baxılan λ-dalğa uzunluğunda birbaşa Günəş radiasiyası, *m* - atmosferi səciyyələndirən parametr, $h_{\otimes}$ - Günəşin qalxma hündürlüyü; $L_{s.səp}(m,\lambda,h_{\otimes})$ - yer səthində səpələnmiş Günəş enerjisinin qiymətidir; *M*- bitkilərin fitokütləsi; *r* - torpağın xüsusiyyətlərini səciyyələndirən parametridir. Bu parametr torpağın nəmliyini, onun tipini və strukturunu qiymətləndirir; $\rho_i(\lambda,m,\theta,r)$ spektrin əks olunma xüsusiyyətini əks etdirən səpələnmə indikatrissasının funksiyasıdır; θ - zenit zenit bucağıdır.

Beləliklə, belə qənaətə gəlmək olar ki, əks olunan şüalanmanın bucağa görə paylanması bitki örtüyünün fiziki xüsusiyyətlərindən, səthinin formasından, düşən şüanın düşmə bucağından asılıdır, bu da əsasən Günəşin qalxma hündürlüyündən ($h_{\otimes}$), atmosferin şəffaflığından (*m*) və indikatrisa funksiyasının [$\rho_i(\lambda,m,\theta,r)$] qiymətindən asılıdır. İfadə (6) M fitokütləsinin hesablanmasında əsas rol oynayır.

Bitki örtüyünün parametrlərinin kəmiyyətjə qiymətləndirilməsində ölçmə nəticələrinə güclü təsir göstərən amillərdən biri də müəyyən müddət ərzində zəiflənən və yaxud güclənən əks olunmanın qiymətləndirilməsidir. Bu amillərin əsas səbəbi radiasiya şüalanmalarının bitki örtüyünün müxtəlif qatlarında və torpaqda əks olunması və ya udulmasıdır.

Bitki örtüyünün (*j* qalınlığı) hündürlüyünün qiymətindən zəiflənən radiasiyanın ümumi qiyməti aşağıdakı kimidir

$$I(j) = \sum_{\theta_s=1}^{n} L_{efi}(\mathrm{m},\mathrm{k},\mathrm{r},\theta,\mathrm{h}_{\otimes}) \cdot \\ \cdot [\varphi_d(\mathrm{m},\mathrm{r},\theta_s,\mathrm{j}) + \varphi_u(\theta_s,\mathrm{m},\mathrm{r},\mathrm{j}+1)] \quad (7)$$

burada $\varphi_d(m,r,\theta_s,j)$- *j* təbəqəsindən θ_s istiqamətində zəiflənən şüalanmanın qiyməti; $\varphi_u(\theta_s,m,r,j+1)$-*j*+1 təbəqəsindən keçərək artan şüalanma qiymətidir.

Araşdırmalar prosesində (5), (6) və (7) ifadələrinin qarşılıqlı müqayisəsi əsasında müxtəlif istiqamətli fitoelementləri olan bitki örtüyündə spektral əks olunma xüsusiyyətlərini qiymətləndirməyə imkan verən aşağıdakı ümumiləşdirilmiş tənlikləri alırıq

$$\left.\begin{aligned}\varphi_d(\mathrm{m},\mathrm{r},\theta_0,\mathrm{j}+1) &= \mathrm{M}(\theta_0,\mathrm{r},\mathrm{m})\varphi_d(\theta_0,\mathrm{j}) + 0{,}5(\rho+\tau)B_s(\theta_0,\mathrm{r},\mathrm{m})\mathrm{I}(\mathrm{j})\\ \varphi_u(\theta_s,\mathrm{m},\mathrm{r},\mathrm{j}) &= \mathrm{M}(\theta_0,\mathrm{r},\mathrm{m})\varphi_u(\theta_0,\mathrm{r},\mathrm{m},\mathrm{j}+1) + (\rho+\tau)B_s(\theta_0,\mathrm{r},\mathrm{m})\mathrm{I}(\mathrm{j})\end{aligned}\right\} \quad (8)$$

Tənliklər sistemi (8) aşağıdakı sərhəd şərtləri əsasında həll edilir. Yuxarı sərhəddə bitki örtüyünün azalan şüalanması düşən və səpələnən şüalanmanın cəminə bərabər olur. Qeyd olunmalıdır ki, şüalanma ancaq baxılan bucaq altında düşür. Aşağı sərhəddə radiasiyanın izotrop mühit olan torpaqdan əks olunması nəzərə alınmalıdır. Belə ki,

$$\varphi_u(\theta_0,\mathrm{r},\mathrm{m}+1) = \rho_t B_u(\theta_0)\sum_{\theta_s=1}^{n}(\theta_s,\mathrm{r},\mathrm{m}+1), \quad (9)$$

burada p_t- torpağın izotrop şüalanmasıdır.

Alınmış nəticələrə təsir göstərən amillərdən biri də ümumilikdə bitki torpaq sistemin təsirindən spektral parlaqlıq əmsalının qiymətidir. Bu qiymət aşağıdakı kimi hesablanır

$$b_{\lambda} = \frac{\varphi_u(\theta_s,\theta_0,\mathrm{m},\mathrm{r},\mathrm{j})}{B_u(\theta_a)} \quad (10)$$

b_λ-nın hesablanması da yuxarıda qeyd etdiyimiz sərhəd şərtləri daxilində aparılır. Əvvəlcə fərz olunur ki, bitki örtüyünün yarpaqları mütləq qaradır.

Bu şərt daxilində (8) tənliklər sistemi bitki örtüyünün bütün təbəqələri üçün həll edilir. Sonradan bu əməliyyat təkrar olunur, lakin hesablamaya fitoelementlərdən spektral səpələnməni səciyyələndirən əmsallar daxil edilir[3,9,10].

Göstərilən model əsasında hesablama nəticələrinin qarşılıqlı müqayisəsi aparılmışdır. Təcrübi ölçmə nəticələri kimi NOAA-l8 peykindən alınmış məlumatlar əsas götürülmüşdür. Peyklərdən alınan informasiya 5 kanallı AVHRR (Advanced Veru High Resolution Radiometer) radiometer vasitəsi ilə alınmışdır. Bizim tədqiqatlarımızda 1-ci (λ=0,58÷0,68mkm) və 2-ci kanalın (λ=0,725÷l,lmkm) məlumatlarından istifadə edilmişdir. Peykin müşahidə zonasının eni 3000km, fəza ayırdetməsi l,lkm təşkil

etmişdir. Azərbaycan ərazisini əhatə edən məlumatlarını interaktiv peyk arxivindən istifadə etməklə (Internet Web-sayt: www.saa.noaa.gov (Satellite Active Archive) müxtəlif vegetasiya dövrlərində bitki örtüyünün spektral parlaqlıq əmsallarının qiymətləndirilməsi aparılmışdır.

Tədqiqat ərazisi kimi Kür-Araz ovalığı götürülmüşdür. Bu da onunla əsaslanır ki, bu region üçün torpaq və bitki örtüyünün spektral xüsusiyyətləri ətraflı tədqiq olunub və müxtəlif səpgili böyük həcmli materiallar mövcuddur.

Peyk sistemlərindən alınmış xarakterik parametrlərin kəmiyyətcə qiymətləndirilməsi üçün eyni bir bitki növü üçün hesablama nəticələri ilə təcrübi nəticələr qarşılıqlı müqayisə olunaraq (10) ifadəsi ilə hesablanan b_λ-nın qiymətləri arasındakı fərqlər müəyyən olunmuşdur.

Bu halda aparılmış yerüstü ölçmələrin o nəticələri götürülmüşdür ki, onların aparıldığı müddətdə Günəşin qalxma hündürlüyü peyk vasitəsilə aparılan ölçmələr zamanı qeyd olunmuş qalxma hündürlüyünə bərabər və yaxud ona çox yaxın olmaqla yanaşı, hər ikisinin spektral ölçmə diapazonu eyni olmalıdır.

Ölçmə və hesablama nəticələri arasındakı xətanın qiyməti Δ aşağıdakı kimi (11) təyin olunmuşdur

$$\Delta = \frac{\left(b_{\lambda_\Delta} - b_{\lambda_y}\right)}{b_{\lambda_y}}. \qquad (11)$$

Bitki növü kimi buğda əkin sahəsinin spektral göstəriciləri əsas götürülmüşdür. Aşağıdakı cədvəldə baxılan diapazonlarda *b*-nın hesablama və təcrübədən alınmış qiymətlər arasındakı fərqlər göstərilmişdir.

Günəşin qalxma hündürlüyü $h_\otimes$ 45°-dən böyük olmalıdır.Göründüyü kimi xətaların qyiməti mənfi və müsbət istiqamətlərdə dəyişir. Xətaların mütləq qiyməti isə 15 %-dən yuxarı olmur.

Tədqiqat şəraitində baxılan dalğa uzunluqlarına aid xətaların kəmiyyəti

Cədvəl

Dalğa uzunluğu, mkm	*Δ*, %	*/Δ/*, %
0,58-0,68	-11,8 ... 17,8	14,8
0,725- 1,1	-11,4 ... 13,0	12,2

Bu qiymət ilk baxışda çox görünsə də, ölçmə prosesinin mürəkkəbliyi bir çox obyektiv və subyektiv amillərin ölçmə nəticələrinə təsiri böyük olduğundan, alınmış qiymətlər qənaətbəxş hesab olunmalıdır. Xətanın qiymətinin azaldılması üçün ölçmələr bitki örtüyünün müxtəlif vegetasiya dövrlərini əhatə etməlidir. Tədqiqatlarda kosmik gəminin orbitinin seçilməsi imkanları xaricində olduğundan biz ancaq bir vegetasiya fazasını əhatə edə bilmişik.

Şəkil 3-də spektral parlaqlıq əmsalının bitkinin tutduğu sahədən asılılığının baxılan dalğa uzunluqlarında dəyişmə xüsusiyyəti verilmişdir.



Şəkil 3

Dənli bitkilərin çiçəklənmə müddətində spektrin qırmızı (680nm) və yaxın infraqırmızı (860nm) zonalarında spektral parlaqlıq əmsalının bitkilərin sıxlığından asılılığı(R-əks olma əmsalı; L_s - bitki sıxlığı).

Şəkildən görünür ki, bitki örtüyünün sıxlığı diapazonunda spektral parlaqlıq əmsalının qiyməti demək olar ki, xətti artır. Bu iki parametr arasında korrelyasiya əlaqəsi yaratmaqla vegetasiya müddətindən asılı olaraq biokütlənin miqdarını hesablamaq mümkündür.

Beləliklə, təklif olunan üsulla spektral parlaqlıq əmsalların və onlardan irəli gələn göstəricilərin və diqər parametrlərin müəyyən edilməsi üçün aşağıdakı nəzərə alınmalı şərtlər göstərilir:

1. İşıqlanma şərti və spektral diapazonda birbaşa və səpələnmə sulla şüalanması nəticəsində ümumi işıqlanma seli, Günəşin qalxma hündürlüyü, spektral diapazonun eni və spektral ayırdetmə xüsusiyyəti.
2. Bitki örtüyünün strukturu: fitoelementlərin nisbi sahəsi, fitoelementlərin meyletmə bucağının diferensial funksiyası.
3. Ayrı-ayrı fitoelementlərin optik xüsusiyyətləri: spektral əksetmə və spektral buraxma əmsalı.
4. Torpağın optik xüsusiyyətləri: torpağın spektral əksolunma əmsalı.

NƏTİCƏLƏR

1. Məqalədə şərh olunan elmi konsepsiyanın reallaşdırılması nəticəsində müxtəlif bitki örtüklərində, o cümlədən, kənd təsərrüfatı, meşə örtüyü və otlaqlarda, baş verə biləcək proseslərin izlənilməsi və regional miqyasda proqnozlaşdırılması məsələlərinin həlli mümkünlüyü göstərilmişdir.
2. Çoxkanallı sistemlərin tətbiqi ilə bitki örtüyünün vegetasiya dövrlərində alınmış məlumatlar əsasında məhsuldarlıq proqnozlaşdırıla bilər.
3. Ölçmələrdən alınan nəticələr əsasında müxtəlif bitki növlərində təbii və antropogen təsirlər nəticəsində baş verən dəyişiklikləri səciyyələndirən məlumat bankının yaradılması imkanı mümkündür və bu olduqca zəruridir.
4. Çoxkanallı peyk ölçmə sistemləri vasitəsi ilə bitki örtüyü üçün alınmış nəticələrini ayrı-ayrı bitki növlərinə bilavasitə tətbiqinin təmin edilməsi məqsədi ilə, ayrı-ayrı parametrlərin qiymətləndirilməsi üçün kompleks aerokosmik tədqiqatların aparılması məqsədəuyğundur.

1. В.В.Козодеров, В.С.Косолапов. *Модели взаимосвязей биометрических и оптико-спектральных характеристик лесной растительности, Исследование Земли из космоса,* **1** (1996) 91-98.
2. A.Ş.Mehdiyev, B.M.Əzizov, A.N.Bədəlova. *Məsafədən zondlamanın fiziki əsasları, Bakı,* (2015) 303.
3. Б.М.Азизов. *Оценка содержания хлорофилла в растениях, подвергнутых антропогенному воздействию спектрометрическим методом, Оптика и спетроскопия,* **3** (2009)514-517.
4. В.В.Козодеров, В.С.Косолапов. *Оптические зондирования биосферы по многоспектральным аэрокосмическим изображениям, Оптика атмосферы и океана,* **5**(1992) 852-859.
5. Б.М.Азизов, Ш.А.Ахмедов. *Дистанционное определение показателей биоресурсов морских вод, Исследование Земли из космоса»,* **4** (2008)77-80.
6. Б.М.Азизов, Д.С.Мехтиев. *Определение методом дистанционного зондирования уменьшения содержании хлорофилла в растениях подвергнутых антропогенному воздействию, Milli Aviasiya Akademiyasının Elmi Məcmüələri,* **4** (2004) 51-55.
7. Е.Н.Белоковская, К.О.Коротков. *Выявление механизмов взаимодействия рельефа и растительного покрова для оценки экологических ситуаций Большого Кавказа методом дистанционного зондирования, Всероссийская научная конференция по картографии, Москва, РАН,* (2001) 236-245.
8. Р.А.Полуэктов, Б.М.Азизов. *Использование СВЧ радиометрических дистанционных измерений влажности почв при решении задачи прогнозирования урожайности сельскохозяйственных культур, Баку., Transactions of National Academy of Science of Azerbaijan, series of physics-mathematical and technical sciences, Physics and Astronomy,* **XXIV** №2 (2004) 123-126.
9. К.К.Росс. *Математическое моелирование переноса радиации в растительных средах. Л., Гидрометеоиздат*, (1992)198.
10. В.И.Сагалович. *Определение содержания воды в растительности по гиперспектральным вегатационным индексом,Исследование Земли из Космоса,* **1**(2004) 63-66.

ПРИМЕНЕНИЕ СПУТНИКОВЫХ ИЗОБРАЖЕНИЙ ДЛЯ ОЦЕНКИ ОПТИЧЕСКИХ ХАРАКТЕРИСТИК РАСТИТЕЛЬНОГО ПОКРОВА

Б.М.АЗИЗОВ, Д.С.МЕХТИЕВ

В представленной статье изучена возможность использования эффективного метода исследования оптических характеристик растительного покрова и показана применимость сравнительной информации, полученной с помощью спутниковых многоканальных систем. На основе изучения обобщённых результатов исследования данных спектрального отражения растительного покрова выявлена возможность применения этого метода для оптимальной количественной оценки на основе модели Гоудриана.

APPLICATION OF SATELLITE IMAGES TO ASSES THE OPTICAL CHARAKTERISTICS OF VEGATATION

B.M.AZIZOV, J.S.MEKHTIYEV

The article presents an examination of the possibility of applying a more efficient quantitative assessment of the optical characteristics of vegetation.

The possibility of its optimal quantitative evaluation is shown on the basis of the Goudrian model and comparative information obtained using multi-channel systems. The study of the obtained generalized results of certain spectral reflection models made it possible to identify indicators of the use of this model.

UOT 524

GÜNƏŞ RADİOŞUALANMASININ ZAMAN SIRALARININ MODELLƏŞDİRİLMƏSİNİN MÜASİR PROBLEMLƏRİ

Ş.Ş.HÜSEYNOV, S.Ş.HÜSEYNOV

AMEA N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası
AZ5626, Şamaxı r., Y. Məmmədəliyev qəs.
shirin.guseyn@gmail.com, sedi-hüseynov@mail.ru

Daxil olub: 21.05.2019
Çapa verilib: 01.09.2019

РЕФЕРАТ
İşdə, Günəşin müxtəlif radioastronomik qurgularda alınan müşahidə məlumatlarından istifadə olunmuşdur. Alınan məlumatlar, əsasən Günəş atmosferində baş verən qeyri-stasionarlıgı əks etdirdiyindən araşdırma dinamik Fraktal tədqiqat üsulunun köməyi ilə aparılmışdır. Başqa sözlə, Günəşdə yaranan mürəkkəb proseslərin tədqiqində sinergetik yanaşmanı-dinamik sistemlərin qeyri-xətiliyini və dissipativliyini nəzərə alm $1<D_t<1,5$ olduqda Günəş radioşualanması flaktuasiyalarının zaman sıraları-davamlı (inersiyalı) zaman sıralarıdır. Müasir dinamik üsul olan-Fraktal təhlilin tətbiqi sayəsində Günəşdə mövcud olan proseslərin dinamik parametirlərini təyin etmış oluruq.

Acar sözlər: Günəş radioşualanması, qeyri-stasionar zaman sıraları, sinergetika, fraktal təhlil, proqnoz, kosmik hava.

GİRİŞ

XIX-əsrin 60-cı ilin sonuna yaxın Günəş radioşualanmasını tədqiq edən rus radiofiziki O.İ.Yudin bu radioşüalanmalarda Günəşdə baş verən fiziki proseslərlə əlaqəli fliktuasiyaların varlıgını təsdiq etdi. Həmin əsrin 70-ci illərində Nijni-Novqorod şəhərində yerləşən Radiofizika elmi-tədqiqat inistutunun elmi işcisi prof. M.M.Kobrin (əməkdaşları ilə birlikdə) həmin fluktasiyaların dinamikasının Günəş atmosverində baş verən alışma hadisələri ilə əlaqəli olduğunu əks etdirən elmi nəticələr nəşr etdirməyə başladı [1,2].

Hal-hazırda, bu müşahidələr diametrləri 2÷100m olan, müxtəlif ölkələrin ərazilərində fəaliyyət göstərən və f=1÷17 Qhs-tezliklərdə işləyən radioastronomik teleskoplarda aparılmasına baxmayaraq, alınan nəticələr əsaslı şəkildə bir-birini təkzib edir. Bunun əsas səbəbləri öz izahını qismən də olsa [3] tapmışdır. Bu səbəblərdən ən mühümü Günəş radioşualanması fluktuasiaları əsasında tərtib olunmuş zaman sıralarının tədqiqinə Furye-cevirməsi və onun müxtəlif modifikasiyalarının tətbiq olunmasıdır. Çünkü bu klassik üsullar stasionar proseslərin araşdırılmasında daha real nəticələr almağa imkan verir.

Son bir necə onilliklərdə tədqiqatcılara aydın oldu ki, Dünyada bir sıra mühüm hadisələr və proseslər mövcuddur ki, onların izahını təkcə rəqs və dalga nəzəriyyəsinə görə vermək mümkün deyildir. Burada, real təkamül edən proseslərdə keyfiyyət göstəricisi kimi "xaos" nəticəsində qeyri-xətti sistemlərə kecid nəzərdə tutulur.

Beləliklə, mürəkkəb hadisələrin və proseslərin mahiyyətini dərk etmək ücün dinamik sistemlərin qeyri-xəttliyini və dissipativliyini qəbul etmək lazımdır.

Dissipativ quruluş nəzəriyyəsi–acıq sistem fizikası və qeyri-xətti dinamika anlayışlarının məcmuyu kimi başa düşülür. Bunlar, dünyada baş verən qeyri-xətti hadisələri təsvir etmək ücün əsas göstəricilərdir. Bu nəzəriyyəyə görə, hərəkətin və təkamülün dəyişmə səbəblərini materiya özü yaradır. Ona görə də qanunauyğunluqları onların xüsusi inkişafında aqxtarmaq lazımdır [4].

Özündə stasionar və qeyri-stasionar təsadüfi prosesləri əks etdirən zaman sıralarının tədqiqi ücün müxtəlif dinamik və statistik üsullardan istifadə olunur. Dinamik üsullarda zaman sıralarında

determiləşmiş "xaosun" statistik üsullarda isə "küyün" olması nəzərdə tutulur. Bu üsulların hər birinin öz üstünlükləri və nöqsanları vardır.

Son 30 ildə, müxtəlif elm sahələrində çalışan mütəxəsislər tərəfindən dünyada canlı və cansız obyektlərdə baş verən hadisələrin və proseslərin yaranma səbəblərini, təkamülünü araşdırmaq üçün dəyərli müddəalar, təkliflər və üsullar işlənib hazırlanmışdır. Bunlardan bir qismi geniş şəkildə monoqrafiyalarda [5,6,7] və dərsliklərdə [8] öz əksini tapmışdır. Hər hansı açıq sistemlərdə apardığımız müşahidələr əsasında tərtib olunmuş zaman sıralarının tədqiqi onun quruluşunu müəyyən etmək və kecmiş məlumatlar əsasında gələcəyini araşdırmaqdan ibarətdir.

Biz bu işin yerinə yetrilməsində yuxarıda qeyd etdiyimiz elmi əsərlərdən faydalanaraq, Günəşin radioastronomik müşahidə məlumatlarından tərtib olunmuş zaman sıralarına dinamik üsul-Fraktal tədqiqat üsulunun tətbiqi sayəsində alışma hadisəsinin və onun Yer atmosverinə təsirinin qabaqcadan xəbər verilməsi və diaqnostikasına qismən də olsa aydınlıq gətirmək istəmişik.

Başqa sözlə, dinamik üsullarda (Fraktal, Veyvlet-cevirməsi və Emprik mod) tədqiq etdiyimiz prosesin xaosla idarə olunması sayəsində, determiləşmiş xaotikliyin mövcudluğu və onun dinamikası araşdırılır.

MÜŞAHİDƏ MƏLUMATLARININ İSTİFADƏSİ VƏ ONLARIN İŞLƏNMƏSİ

Müşahidə məlumatları kimi, 12 ədəd izolə edilmiş və gücü $2 \le K \le 3$ bal olan Günəş radio püskürmələrindən istifadə olunmuşdur. Müşahidələr 2010÷15-ci illərdə Qazağıstan Respublikasının İonosfer İnstitutunda f=1Qhs və f=3Qhs tezliklərdə işləyən 12m-lik radioteleskopda aparılmışdır.

Günəşin müşahidəsi yerli vaxtla səhər 08:00-dən 18:00-ə kimi 10.7 və 27.8sm dalğa uzunluqlarında müntəzəm olaraq davam etdirilmişdir. Alınan məlumatların diskret addımı ∇t=5san olduğu üçün 7÷8 saat ərzində gündəlik məlumatların sayı N=5400÷5700-ə bərabər olur. Bu da imkan verir ki, fluktuasiyalardan 5-dəqiqədən 70-dəqiqəyə qədər davamlı xarakteik dəyişmələrin dinamikasını izləmək mümkün olsun. Nəzərdə tutulmuş radiopüskürmələr və onların ətrafında alınmış müşahidə məlumatlarının işlənməsi Dinamik Furye Çevrilməsi (DFÇ) və Fraktal Təhlil Üsulunun (FTÜ)-köməyi ilə aparılmışdır[3,9].

Birgə aparılan tədqiqat sayəsində Günəş aktivliyinin 24-ci tsiklində 17 may və 6 yanvar 2014-cü il baş vermış proton hadisəsindən başqa, daha üç güclü proton hadisələrinin-27 yanvar,7 mart və 13 mart 2012-ci ildə baş verdiyi təsdiqləndi [9]. Bu proton hadisələrnin baş verdiyi müddət ərzində Yerdə Günəşin kosmik şüalanmasının artması müşahidə olunmuşdu. Proton hadisəsi-kosmik havanın ən vacib və qorxulu təzahürlərindən biri olaraq, onun diqqətilə və hərtərəfli öyrənilməsini gözləyir.

Bundan başqa, biz Nobeyamada(Yaponiya) 1, 2, 3 və 4Qhs tezliklərdə işləyən, 2010÷15-ci il tarixlərində radiopolyarimetrlərdə alınan məlumatlardan da istifadə etmişik. Riyazi işlənmə üçün bu məlumatlar htt://solar.nro.ac.jp-saytından götürülmüdür. Zaman sıraları Δt=1 dəq addım ilə diskret qiymətlər əsasında tərtib olunmuşdur. Biz ləkələrin təkamülü ilə əlaqəli olan (sahələrin dəyişməsi, intensivliyinin artması) və gücü $5.5 \le M \le 8.7$ aralıqda dəyişən alışma hadisələri ətrafında tərtib olunmuş zaman sıralarını tədqiq etmişik. Hal-hazırda proton hadisəsi zamanı həyacanlaşmanın qiymətini beş ballıq şkala ilə R1-dən (M-ballı alışma üçün) R5-ə qədər (M>12.5-ən güclü alışma üçün) qiymətləndirirlər.

MÜŞAHİDƏ MƏLUMATLARININ İŞLƏNMƏSİNİN NƏTİCƏLƏRİ VƏ ONUN TƏHLİLİ

Son 25-ilə yaxın müddətdə elmin müxtəlif sahələrində-fizikada, geofizikada, radiofizikada, biologiyada, tibbdə, iqtisadiyyatda və sairə baş verən qeyri-stasionar proseslərin dinamikasını özündə əks etdirən zaman sıralarnı təhlil etmək üçün müasir üsullardan (Fraktal, Veyvlet-çevirməsi Emprik mod) geniş istifadə olunur [3].

Fraktal tədqiqat üsulunun radioastronomik zaman sıralarına tədbiqi öz əksini [3,10] tapmışdır. Zaman sıralarnın xaotiklik dərəcəsini təyin etmək Fraktal tədqiqatın əsas mahiyətidir. Fraktal ölçü dərəcəsinin qiymətləndirilməsi üçün müxtəlif üsullar mövcuddur. Qeyri-stasionar zaman sıraları üçün təklif olunan sadə R/S-üsulu ingilis hidroloqu Xerest tərəfindən irəli sürülmüşdür [11]. Bu üsulda

H_t - Xerest göstəricisi əsasında Fraktal ölçü dərəcəsi - D_t təyin olunur. İşdə 12 ədəd güclü alişma və 5-ədəd proton hadisələri kimi qiymətləndirilən proses ətrafinda (hadisidən 3 gün əvvəl, hadisə günü və hadisədən 2 gün sonra) tərtib olunmuş radioastronomik zaman sıraları modifikasiya edilmiş Fraktal tədqiqat üsulunun köməyi ilə təhlil olunmuşdur. Alışma hadisələrinin təhlili zamanı, araşdırma üçün önəmli olan lokal sıçrayışlar ətrafında tətqiq etdiymiz zaman sıralarındakı diskret nöqtələrin sayı 100≤N≤300 nisbətən az olduqda Erik Naymanın emprik yolla təkminləşdirdiyi aşağıdakı düsturdan istifadə etmişik [12]

$$H_t=\ln(R/S)/\ln(\pi+\frac{N}{2})(-0{,}0011*\ln N+1{,}0136), \quad (1)$$

burada a = π/2 - verilmiş sabit müsbət ədəddir.

Xerest təbiət hadisələrinin təhlili zamanı sıraların diskret qiymətlərnin sayı az olduqda, təcrübü yolla bu sabitin qiymətnin a=0.5-ə bərabər qiyymətnin realligı daha düzgün əks etdirdiyi qənaətinə gəlmişdir. Onda $\pi=2a=2\cdot0.5=1$ olur. Biz (1) düsturundan sonrakı hesaplamalarmızda istifadə etmişik. Harda kı, N-zanam sirasindakı müşahidə məlumatlarının sayıdır. S-müşahidə siralarnın orta kvadratik meyl etməsidir. R-sərhəd daxilində qolaylanma(paзмax) qiymətidir.

Xerest hesablama nöqtəsi olaraq, Eyneşteyinin hissəciklərin Broun hərəkəti haqqında əsərindən götürduyu $R=\sqrt{T}$ - düsturundan isdifadə etmişdir. T-isə zaman göstəricisidir.

Xerest göstəricisinə görə Fraktal ölçü dərəcəsi - D_t aşağıdakı sadə düsturla təyin edilmişdir

$$D_t=2-H_t. \quad (2)$$

Alışma hadisələri ətrafında tərtib olunmuş zaman sıraları üçün xaotikliyin D_t -Fraktal ölçü dərəcələri qiymətləndirilmişdir

$$0{,}5 < H_t \le 1; \quad 1 < D_t < 1{,}5.$$

Bu qiymətlər imkan verir ki, radioastronomik fluktuasiyalardan tərtib olunmuş zaman sıralarının davamlı (ətalətli) zaman sıraları olduğu anlamına gələk.

Əgər $H_t \approx 0{,}5$; $D_t \approx 1{,}5$ dirsə, onda prosesin təsadüfi olduğu aşkarlanmış olunur.

Müşahidə məlumatlarmın statistik və dinamik usularla işlənməsinin nəticələri aşağdakı qrafiklərdə və cədvəllərdə göstərilmişdir.

Şəkillərdən görnür ki, 1(a)-Şəklində göstərilmiş güc spektrlərində t_x=10÷15 dəq. xarakterik dəyişməsi olan piklər və 1(b) isə t_x=35÷40 dəq. xarakterik dəyişmələr üstünlük edirlər. 1Qhs tezlikdə aparılmış müşahidələrinin nəticələri əsasında qurulumuş güc spektrlərnin alışma hadisələri ilə əlaqəsi aşkar edilmədi. 1(b)-şəklindən aydın görnür ki, f=3Qhs tezlikdə tərtib olunmuş zaman sıraları əsasında qurulmuş güc spektrlərində alışma hadisəsinə yaxınlaşdıqca, $t_x \approx 35 \div 40$ dəqiqəlik xarakterik dəyişmələr üstünlük təşkil edir.

İşdə alınmış bu nəticələr öz nəzəri izahnı qismən də olsa A.A.Solovyov və Y.A.Kiriçik tərəfindən irəli sürülmüş "kiçicik günəş ləkələri" modelində tapılmışdır [13].



Şəkil 1

1Qhs və 3Qhs - tezliklərdə fluktuasiyaların ortalaşdırılmış amplitud (güc) spektrləri. 4-ədədi ilə işarə edilmiş əyrilər alışma günlərinin ortalaşmış spektrləridir.

Cədvəldə verilmiş qiymətlərdən görünür ki, alışma hadisəsinə yaxınlaşdıqca, xaotiklik daha rəvan (səlis) determiləşmiş xaotikliklə əvəz olnur.

İşdə 5-ədəd proton hadisəsinin araşdırılması sayəsində alınmış qiymətlər onu deməyə əsas verir ki, Fraktal ölçü dərəcəsinin qiymətinin proton hadisəsinin gücündən asılılığı tərs mütənasibdir.

NƏTİCƏ

Bu işin yerinə yetrilməsi, yekunda aşağıdakı elmi nəticələri söyləməyə imkan verir:

1. Müəyyən edilmişdir ki, gücü $2 \leq K \leq 3$ bal olan alışmadan 1÷3 gün əvvəl xarakterik dəyişmə müddəti $t_x \geq 35$dəq. olan döyüntülər daha üstünlük təşkil edirlər.
2. Aşkar edilmişdir ki, Günəş radioşüalanması fluktuasiyalarının zaman sıraları, Fraktal ölçü dərəcəsinin qiymətinə $1 < D_t < 1{,}5$ görə davamlı (ətalətli) zaman sıraıarıdır. Başqa sözlə, alışma hadisələrinə yaxınlaş-dıqca xaotiklik daha rəvan determiləşmiş xaotikliklə əvəz olunur.
3. 5-ədəd proton hadisəsinin tətqiq olunması sayəsində hesablanmış fraktal ölcü dərəcəsinin qiymətinin proton hadisəsinin gücündən asılılığının tərs mütənasib olduğu aşkar edilmişdir. Daha doğrusu, proton hadisələrinə 1÷3 gün qalmış $D_{t\ güclü} < D_{t\ zəif}$ -şərti saxlanılır.
4. Müəyyən edilmişdir ki, radioastronomik zaman sıralarına dinamik Fraktal tədqiqat üsulunun tətbiqi, Günəşdə gedən proseslərin və onun Yer atmosferi ilə qarşılıqlı təsiri nəticəsində yaranan fiziki şəraitin deterimləşmiş xaotikliklə idarə olunmasını nəzərə alır. Bu da, tətqiq etdiyimiz obyektin enerji balansının keyfiyyət və kəmiyyət cəhətdən qiymətləndirilməsinə imkan verir.

Beləliklə, müasir dinamik üsul olan - Fraktal təhlil Günəşdə baş verən qeyri-stasionar proseslərin araşdırılmasında daha real nəticələr əldə etməyə şərait yaradır.

Cədvəl 1

Alışma hadisəsi ətrafında gündəlik zaman sıralarının Xerest göstəriciləri və Fraktal ölçü dərəcələrinin qiymətləri.

Günlər, ay, il	3.03.2011	4.03.2011	5.03.2011	6.03.2011	7.03.2011 Alışma günü	8.03.2011	9.03.2011
Xrest göstəricisi **H**	0.827	0.825	0.828	0.814	0.766	0.825	0.830
Fraktal ölçü dərəcəsi **D**	1.172	1.174	1.171	1.185	1.233	1.174	1.169

Cədvəl 2

07.03.201-ci il tarixində müxtəlif zaman intervallarında baş vermiş 3-ədəd alışma müddətində Fraktal ölçü dərəcələrinin qiymətləri.

Alışma günü	Alışmanın müddəti	Hadisə vaxtı **D**
7.03.2011	1) 04.54÷05.40	1.157
	2) 07.55÷08.41	1.171
	3) 09.00÷09.50	1.168

Cədvəl 3

Müxtəlif günlərdə baş vermiş proton hadisələrinin gücünün Fraktal ölçü dərəcəsinin qiymətindən asıllığı.

Proton hadisələrinin baş verdiyi gün,ay,il	05.03.2012	09.03.2012	13.03.2012	07.03.2012
Proton hadisələrinin gücü	M 5.5	M 6.3	M 7.9	X 5.5; X 1.5 α-β-γ
Fraktal ölçü dərəcəsinin qiymətləri	1.272	1.260	1.246	1.193

MİNNƏTDARLIQ

Müəlliflər bu işin yerinə yetirilməsində RT-12 metrlik radioteleskop qurğusunda alınan müşahidə məlumatlarından istifadəyə şərait yaratdıqlarına görə Qazaxıstan Respublikasının İonosfer İnstitutunun rəhbərliyinə öz dərin minnətdarlığını bildirirlər.

1. О.Н.Юдин. *Квазипериодические низкочастотные флуктуации радиоизлучения Солнца, Доклады АН СССР*, **180** (1968) 821-823.
2. M.M.Kobrin, A.I.Korshunov. *On quasi-periodic components with periodic from 30 to 60min of amplitude fluctuations of X-band solar radio emission, Sol. Phys.*, **25** (1972) 339-342.
3. Ş.Ş.Hüseyinov, S.Ş.Hüseyinov. *Santimetrlik-desimetrlik dalğa uzunluğunda Günəş radioşüalanmasıı fluktuasiyalarının zaman sıralarının statistik və dinamik tədqiqi, "Aviakosmik problemlərin həllində gənclərin yaradıcısı potensialı" lll-beynəlxalq elmi-praktiki gənclər konfransı*, (2018) 171-173.
4. И.Пригожин. *От существующего к возникающему, М.: Наука*, (1980) 342.
5. И.Пригожин, И.Стингерс. *Время - хаос, квант, К решению парадокса времени.-М.: Эдиториал УРСС*, (2001) 239.
6. В.М.Сомисков. *К основам физика эволюции, Алматы*, (2016) 306.
7. А.Ю.Лоскутов. *Основы теории сложных систем, М.: Регулярная и хаотическая динамика*, (2007) 311.
8. А.Ю.Лоскунов, А.С.Михайлов. *Введение в синергетику, М: Наука,* (1990) 272.
9. Ш.Ш.Гусейнов, И.Г.Гахраманов, С.Ш.Гусейнов, В.М.Сомсиков и др. *Исследование характеристик параметров солнечных радиовсплесков - как эффективный критерии прогнозирования космической погоды, Azarbaijan Astronomical Journal*, **11** №2 **(**2016) 20-26.
10. Ш.Ш.Гусейнов. *Некоторые особенности характеристик хаотических колебаний, Fizika, AMEA-nin Fizika İnstitutu,* №3 (2002) 31-34.
11. H.E.Hurst. *Lonq stroge of reservoirs: an experimental study, Transactions of the American Society of Civil Engimeers*, **116** (1951) 779-808.
12. Э.Найман. *Как покупать дешево и продавать дорого: Пособие для разумного инвентара, М.: «Альпина Паблишерз»*, (2011) 552.
13. А.А.Соловьев, Е.А.Киричек. *Солнечное пятно, как уединенная магнитная структура: устойчивость и колебания, Астрофизика. бюлл.*, **63** №2 (2008) 180-192.

MODERN PROBLEMS MODELING THE TIME SERIES OF THE SOLAR RADIORADIATION

Sh.Sh.GUSEYNOV, S.Sh.GUSEYNOV

The solar observational data, obtained at various radioastronomy devices has been used. A synergistic approach in the study of complex processes that arise in the Sun-the nonlinearity of dynamic systems and dissipation has been used. It has revealed that when the value of fractal measure degree is in the interval $1<D_t<1,5$ the temporal series of the solar radiation have been persistent temporal series. Throgh the application of the method of fractal analysis, which is a modern dynamic processes that occur in the Sun.

СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ МОДЕЛИРОВАНИЯ ПО ВРЕМЕННЫМ РЯДАМ СОЛНЕЧНОГО РАДИОИЗЛУЧЕНИЯ

Ш Ш.ГУСЕЙНОВ, С.Ш.ГУСЕЙНОВ

В работе были использованы солнечные наблюдательные материалы, полученные на разных радиоастрономических устройствах. При исследовании сложных процессов на Солнце учитывали синергетические подходы: нелинейность и диссипативность в динамических системах. Выявлено, что если полученные на основе временных рядов флуктуаций радиоизлучения Солнца фрактальные оценки $1<D_t<1,5$, то тогда существующий ряд имеет инерционный характер. Применение на практике современного динамического метода фрактального анализа дало возможность определить динамические параметры (эволюция пятен, прогноз вспышечных событий и оценить их мощность и др.) на Солнце.

УДК 523:531.01

К ВОПРОСУ О НЕОРБИТАЛЬНОМ ПЛОСКОПАРАЛЛЕЛЬНОМ ДВИЖЕНИИ НЕКОТОРЫХ ПЛАНЕТ

Н.А.НАСИБОВ

Азербайджанский Технический Университет
AZ 1073, Баку, пр. Г.Джавида, 25
nasibovn1@mail.ru

Получена: 12.06.2019
Принята к печати: 01.09.2019

РЕФЕРАТ

Рассмотрено неорбитальное движение двух планет Солнечной системы, а именно, Меркурия и Юпитера, относительно гелиоцентрической системы отсчета. Под термином «неорбитальное» понимается такое движение планеты, при котором последняя представляется не как некоторая материальная точка, движущаяся по своей траектории (орбите), а как твердое тело конечных размеров. И при этом исследуется основная часть неорбитального движения (основное неорбитальное движение), т.е. вековые перемещения и различные возмущения из рассмотрения исключаются. Показано, что в пределах отмеченных условий на относительно небольшом (по космическим масштабам) участке орбиты неорбитальное движение этих планет при первом приближении может быть рассмотрено как плоскопараллельное движение твердого тела. Определены основные кинематические характеристики данного движения для указанных планет.

Ключевые слова: неорбитальное движение, планета, Меркурий, Юпитер, гелиоцентрическая система отсчета, плоскопараллельное движение, угловая скорость.

ВВЕДЕНИЕ

Исследование движения тел Солнечной системы наряду с вопросами гравитации считаются важнейшими задачами космической механики [1- 7 и др.].

В нашей статье [6] рассмотрены некоторые вопросы неорбитального плоскопараллельного движения планет Солнечной системы относительно гелиоцентрической системы отсчета. Неорбитальным было названо такое движение планеты, при котором последняя рассматривается не как некоторая материальная точка, движущаяся по своей траектории (орбите), а как некоторое твердое тело конечных размеров. Было показано, что на относительно малом участке своей орбиты неорбитальное движение некоторых планет (Меркурий, Венера, Юпитер), благодаря достаточно малому значению их угла между плоскостями орбиты и экватора, при первом приближении может быть рассмотрено как хорошо изученное в теоретической механике плоскопараллельное движение твердого тела. Сказанное было отнесено к основному неорбитальному движению указанных планет, т.е. к движению без учета их вековых перемещений и различных возмущений. При этом основное неорбитальное движение Венеры было проанализировано относительно подробно.

ОСНОВНОЕ СОДЕРЖАНИЕ

В данной статье рассматриваются особенности аналогичного движения Меркурия и Юпитера. Следует отметить, что между характером кинематики неорбитального движения Венеры и этих двух планет имеются некоторые существенные различия. К указанным различиям можно отнести, например, то, что направ-

ление вращения Венеры вокруг собственной оси, в отличие от направления аналогичного вращения других, в том числе и этих планет, обратное, а эксцентриситет орбиты Меркурия наибольший (равен 0,206) в сравнении с таковыми у всех остальных планет. В то же время, как на это было указано в [6], на роль плоскопараллельно движущегося космического тела из всех планет больше всего подходит именно Меркурий, так как у него угол между плоскостями орбиты и экватора (характерный угол) наименьший ($0{,}01^0$). А отсюда следует, что плоскости экватора и орбиты Меркурия практически совпадают, что имеет решающее значение для того, чтобы неорбитальное движение планеты считать довольно близким к плоскопараллельному.

Однако из-за относительно большого значения эксцентриситета орбиты Меркурия возникает другой вопрос. Спрашивается, а можно ли, хотя бы в первом приближении, принимать орбиту Меркурия, аналогично орбите Венеры, за окружность, что позволяло бы неорбитальное движение и этой планеты рассмотреть, как сумму ее вращений вокруг двух параллельных осей. Это сильно упростило бы задачу. Рассмотрим данный вопрос. Известно, что эксцентриситет эллипса

$$e=\frac{\sqrt{a^2-b^2}}{a}=\sqrt{1-\left(\frac{b}{a}\right)^2}, \qquad (1)$$

где a и b соответственно длины большой и малой полуосей эллипса. Из (1) находим

$$b=a\sqrt{1-e^2}\ . \qquad (2)$$

Заметим, что ниже при выполнении числовых расчетов необходимые данные (характеристики планет) были приняты согласно [2]. Расчеты приближенные.

Длина большой полуоси орбиты Меркурия составляет $a\approx 58\cdot 10^6$км, а значение эксцентриситета приведено выше. Подставляя эти данные в (2), находим длину малой полуоси орбиты Меркурия

$$b\approx 58\cdot 10^6\cdot\sqrt{1-0{,}206^2}\approx 56{,}76\cdot 10^6\ \text{км}.$$

Средний радиус, точнее, средняя длина радиус-вектора, орбиты Меркурия

$$R_{\text{ср.}}=\frac{1}{2}(a+b)=\frac{1}{2}(58+56{,}76)\cdot 10^6\approx 57{,}38\cdot 10^6\ \text{км}.$$

Наибольшее отклонение длин полуосей орбиты Меркурия от среднего радиуса этой орбиты

$$a-R_{\text{ср.}}=R_{\text{ср.}}-b=(58-57{,}38)\cdot 10^6=0{,}62\cdot 10^6\ \text{км}.$$

А в процентном отношении

$$\frac{a-R_{\text{ср.}}}{R_{\text{ср.}}}\cdot 100\%=\frac{0{,}62\cdot 10^6}{57{,}38\cdot 10^6}\cdot 100\%\approx 1{,}08\%.$$

Таким образом, максимальное отклонение длины радиус-вектора орбиты Меркурия от ее усредненного значения составляет чуть более одного процента. Это указывает на то, что в первом приближении и орбиту Меркурия можно принимать за окружность с радиусом равным, примерно, $57{,}38\cdot 10^6$км и с центром, условно совпадающим с Солнцем. Отсюда следует, что движение Меркурия вокруг Солнца, в указанном приближении и в соответствии с положениями теоретической механики [8], допустимо представить аналогично движению Венеры как частный случай плоскопараллельного движения, а именно, как сумму вращений вокруг двух параллельных осей: вращения вокруг собственной оси 1-1 (ось относительного вращения) и вращения этой оси вокруг параллельной ей и, проходящей через центр Солнца, оси 2-2 (ось переносного вращения) (Рис.1).

Угловые скорости Меркурия при относительном и переносном вращениях обозначим через ω_r и ω_e, соответственно. То, что оба эти вращения происходят, если смотреть со стороны Северного полюса, против хода часовой стрелки, известно.



Рис.1

Кинематическая схема плоскопараллельного движения планеты Меркурий: 1-1 – собственная ось вращения планеты (ось относительного вращения); 2 -2 – ось переносного вращения; 3-3 – мгновенная ось вращения; 4 -4 – мгновенная ось ускорений.

На Рис. 1 точки *P* и *Q* - соответственно мгновенный центр скоростей и мгновенный центр ускорений экваториального сечения Меркурия. Проходящие через эти центры перпендикулярно к плоскости экваториального сечения прямые 3-3 и 4-4 представляют собой соответственно мгновенную ось вращения (МОВ) (называемую также мгновенной осью скоростей) и мгновенную ось ускорений (МОУ).

Сидерический период обращения Меркурия вокруг Солнца (меркурианский год) составляет 87,97 земных суток, а сидерический период вращения (меркурианские звездные сутки) равен 58,65 земным суткам. Тогда

$$\omega_e = 1\frac{\text{об.}}{87{,}97\text{сут.}} \approx 0{,}83\cdot 10^{-6}\ \frac{\text{рад.}}{\text{с}},$$

$$\omega^* = 1\frac{\text{об.}}{58{,}65\text{сут.}} \approx 1{,}24\cdot 10^{-6}\ \frac{\text{рад.}}{\text{с}},$$

где ω^* - угловая скорость вращения Меркурия относительно звезд. А угловая скорость этой планеты при вращении (повороте) относительно прямой, соединяющей ее центр с центром Солнца, или, как иногда говорят, относительно центра Солнца (относительная угловая скорость)

$$\omega_r = \omega^* - \omega_e = 1{,}24\cdot 10^{-6} - 0{,}83\cdot 10^{-6} = 0{,}41\cdot 10^{-6}\ \frac{\text{рад.}}{\text{с}}.$$

В соответствии с положениями сложения одинаково направленных вращений вокруг двух параллельных осей мгновенная угловая скорость Меркурия будет равна сумме ее переносной и относительной угловых скоростей, т.е.

$$\Omega = \omega_e + \omega_r = (0{,}83 + 0{,}41)\cdot 10^{-6} = 1{,}24\cdot 10^{-6}\ \frac{\text{рад.}}{\text{с}}.$$

Из равенства численных значений ω^* и Ω следует, что вращение Меркурия относительно звезд происходит не вокруг ее собственной оси вращения, а вокруг ее МОВ.

Для определения положения МОВ Меркурия достаточно найти положение мгновенного центра скоростей *P* экваториального сечения этой планеты. Значение скорости точки *P*

$$V_p = V_{pe} - V_{pr} = 0, \qquad (3)$$

где V_{pe} и V_{pr} - скорости центра *P* при переносном и относительном вращениях экваториального сечения соответственно. В данном случае $V_{pe} = \omega_e \cdot PC$, $V_{pr} = \omega_r \cdot PO$. Подставляя эти выражения в (3), и учитывая, что *PC=CO-PO,* находим

$$PO = \frac{\omega_e}{\omega_e + \omega_r} \cdot CO \cdot \qquad (4)$$

Положение мгновенного центра ускорений Q экваториального сечения (и тем самым, положение МОУ) Меркурия можно определить из выражения

$$W_Q = W_{QO} - W_O = 0, \qquad (5)$$

где W_Q - ускорение центра Q; W_o- ускорение центра O Меркурия; W_{QO}- ускорение центра Q при вращении экваториального сечения вокруг принятого за полюс точки О.

В данном случае

$$\left.\begin{aligned} W_O = \omega_e^2 \cdot CO, \quad W_{QO} = \Omega^2 \cdot QO = \left(\omega_e + \omega_r\right)^2 \cdot QO. \end{aligned}\right\} \qquad (6)$$

Соответствующие тангенциальные ускорения считаются равными нулю, так как вращения предполагаются равномерными.

Подставляя (6) в (5), находим

$$QO = \frac{\omega_e^2}{\left(\omega_e + \omega_r\right)^2} \cdot CO \cdot \qquad (7)$$

Скорости и ускорения точек Меркурия могут быть определены по методике, аналогичной методике, изложенной в [6] для точек Венеры. На Рис.1 показаны векторы скоростей и ускорений некоторых точек (точек *O, A, D*) экваториального сечения Меркурия.

Рассмотрим теперь вопрос об определении числового значения расстояний от центра Меркурия до МОВ и МОУ этой планеты.

Средний радиус орбиты Меркурия определили выше. Принимаем: $CO=R_{ср.}=57{,}38\cdot10^6$км. Тогда согласно (4) и (7)

$$PO = \frac{0{,}83\cdot10^{-6}}{0{,}83\cdot10^{-6} + 0{,}41\cdot10^{-6}} \cdot 57{,}38\cdot10^6 \approx 38{,}41\cdot10^6 \text{ км},$$

$$QO = \left(\frac{0{,}83\cdot10^{-6}}{0{,}83\cdot10^{-6} + 0{,}41\cdot10^{-6}}\right)^2 \cdot 57{,}38\cdot10^6 \approx 25{,}71\cdot10^6 \text{ км}.$$

Как видно, в отличие от Венеры, мгновенные центры как скоростей, так и ускорений экваториального сечения (следовательно, как МОВ, так и МОУ) Меркурия расположены между этой планетой и центром ее орбиты (говоря проще, между Меркурием и Солнцем).

Рассмотрим теперь аналогичные вопросы для Юпитера.

Угол отклонения оси вращения Юпитера от перпендикуляра к плоскости ее орбиты (характерный угол, т.е. угол между плоскостями экватора и орбиты) составляет $3{,}1^0$, что больше чем аналогичный угол у Меркурия и Венеры, но в то же время достаточно мал, чтобы можно было на относительно малом участке орбиты считать неорбитальное движение и этой планеты практически плоскопараллельным (пренебрегая при этом относительными перемещениями между ее частями. Как известно, Юпитер не входит в число планет земной группы, и, вообще говоря, не является твердым телом, только здесь условно принимается таковым).

Средний радиус орбиты Юпитера $CO\approx778\cdot10^6$км. Орбита с достаточной в данном случае точностью может быть принята за окружность (эксцентриситет орбиты 0,049).

Сидерические периоды обращения Юпитера вокруг Солнца (юпитерианский год) и вращения относительно звезд (юпитерианские звездные сутки) равны соответственно 4332 и 0,413 земным суткам. В таком случае

$$\omega_e = 1\frac{\text{об.}}{4332\text{ сут.}} \approx 1{,}68\cdot10^{-8}\ \frac{\text{рад.}}{\text{с}},$$

$$\omega^* = 1\frac{\text{об.}}{0{,}413\text{ сут.}} \approx 1{,}76\cdot10^{-4}\ \frac{\text{рад.}}{\text{с}},$$

где ω^* – угловая скорость вращения Юпитера относительно звезд. Тогда

$$\omega_r = \omega^* - \omega_e = 1{,}76\cdot10^{-4} - 1{,}68\cdot10^{-8} \approx 1{,}76\cdot10^{-4}\ \frac{\text{рад.}}{\text{с}}.$$

Мгновенная угловая скорость вращения Юпитера

$$\Omega = \omega_e + \omega_r = 1{,}68\cdot10^{-8} + 1{,}76\cdot10^{-4} \approx 1{,}76\cdot10^{-4}\ \frac{\text{рад.}}{\text{с}}.$$

Как видно, угловая скорость обращения Юпитера вокруг Солнца вращения практически не влияет на значение ее мгновенной угловой скорости.

Найдем теперь расстояние от центра Юпитера до мгновенных центров скоростей и ускорений его экваториального сечения. В соответствии с формулами (4) и (7), имеем

$$PO = \frac{\omega_e}{\omega_e + \omega_r} \cdot CO = \frac{1{,}68 \cdot 10^{-8}}{1{,}68 \cdot 10^{-8} + 1{,}76 \cdot 10^{-4}} \cdot 778 \cdot 10^6 \approx 74300\text{км}$$

$$QO = \frac{\omega_e^2}{(\omega_e + \omega_r)^2} \cdot CO = \left(\frac{1{,}68 \cdot 10^{-8}}{1{,}68 \cdot 10^{-8} + 1{,}76 \cdot 10^{-4}}\right)^2 \cdot 778 \cdot 10^6 \approx 7{,}1\text{км}$$

